# ABŞ-NİN TƏRƏFLİ "VASİTƏÇİLİYİ"



ABŞ Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Nyu-Yorkda keçirilən görüşündən öncə hansısa inqilabi yekuna dair xüsusi illüziya bəsləməyin əbəs olduğu aydın idi.

Tərəflərdən gələn ilkin açıqlamalar da göstərir ki, indi "nəticə nə oldu" deyil, "görüş niyə təşkil olunmuşdu" sualı daha aktual səslənir. ABŞ-nin Dövlət katibi Blinkenin ofisindən gələn açıqlamanın səthiliyi də qənaətimizi təsdiq edir.

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

28 SENTYABR ŞƏNBƏ 2024 | 37 (4188)    Qiyməti - 40 qəpik    www.kaspi.az



## TEMPİ SAXLAMAQ LAZIMDIR

Azərbaycana gələn turistlərin sayında ciddi artım müşahidə edilir. Rusiyadan, Hindistandan gələn turistlərin sayında nəzərəçarpacaq artım müşahidə edilir. Gələn il Çindən gələnlərin sayında da ciddi çoxalma proqnozlaşdırılır.

SƏHİFƏ 13-də




## OVUC İÇİNDƏKİ NAĞIL

Şuşa qonaqlarını yenilənən və dirçələn siması ilə qarşılayır. 30 il ərzində yorulduğu əsirlikdən, cana doyduğu müharibədən indi nəfəs alan kimidir. Sürətlə bərpa olunur, quruculuq işləri gedir.

SƏHİFƏ 6-da

DÜNYA HƏRB TARİXİNİN GÖRMƏDİYİ QƏLƏBƏNİN MEMARLARI

# ŞƏHİDLƏRİMİZİ EHTİRAMLA ANIRIQ




Cəmi 44 gün ərzində düşmən darmadağın edildi, işğal faktına son qoyuldu, sərhədlərimizin bütövlüyü təmin edildi. Bu hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu üç minə yaxın şəhid verdi. Onların yazdıqları qəhrəmanlıq dastanları bu gün də dillər əzbəridir.

### BAKIDA ZƏFƏR MUZEYİ YARADILIR

Prezident İlham Əliyevin imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə Zəfər muzeyi yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək.

SƏHİFƏ 2-də




### MİKRO SAHİBKARLAR

## VERGİ MÜJDƏSİ GÖZLƏYİRLƏR

Bu ilin əvvəlindən ləğv edilən güzəştlərin gələn il yenidən bərpa ediləcəyi ilə bağlı gözləntilər var. Ekspertlər də hesab edirlər ki, yanvarın 1-dən tətbiq edilən sistem gözlənilən effekti verməyib.

SƏHİFƏ 11-də



## ALMANİYANI GÖZLƏYƏN TƏHLÜKƏ

Hazırda Avropa İttifaqının əsas ölkələrindən olan Almaniyanın siyasi mənzərəsi köklü dəyişikliklər yaşayır. Yerli seçkilərdə ifrat sağ və solun qələbəsi kansler Olaf Şolts üçün fəlakət kimi qiymətləndirilir.

SƏHİFƏ 5-də



## ÇÖRƏK YEMƏYİ AZALDIRIQ?

Ölkəmizdə əvvəlki illərlə müqayisədə çörək istehlakı azalıb. Belə ki, 2023-cü ildə Azərbaycanda adambaşına 116.6 kiloqram çörək istehlak edilib. Bu, 2022-ci illə müqayisədə 5.9 kiloqram azdır.

SƏHİFƏ 14-də

ƏN YAXŞI TƏBLİĞAT ŞƏXSİ NÜMUNƏDİR

# QLOBAL DÜŞÜNÜB, LOKAL YAŞAMALIYIQ

Gənc vaxtı eşitdiyi "heç azərbaycanlıların fizika ilə məşğul olduğunu görməmişdim" cümləsi karyera yolunda ən böyük silahı olub. Məhz bu cümlədən aldığı güclə millətlər içində özünü sübut edib.



Hətta yaşadığı ölkədə fizika sahəsində ilk azərbaycanlı professor adını alıb. Müsahibimiz Kanadada professor adını alan ilk azərbaycanlı Arzu Sərdarlıdır.

SƏHİFƏ 8-9-da



## PARILTISINA YOX, KEYFİYYƏTİNƏ BAXIN

Nəzarətin olmaması keyfiyyətsiz zərgərlik məhsullarının bazara ayaq açması ilə nəticələnib. Bu isə bazarda aldadılma riskini artırır. Ekspertlər bu sahədə nəzarətedici bir qurumun yaradılmasının vacibliyini vurğulayırlar.

SƏHİFƏ 7-də



"Global Media Group" təlim təşkil edib

SƏHİFƏ 10-da



Təqaüd proqramının qalibləri tədrisə başlayıblar

SƏHİFƏ 2-də



Sağalmaq üçün içirik, amma zəhərləyə də bilir

SƏHİFƏ 12-də



İstedadı və səxavəti ilə əbədiləşən Səxavət

SƏHİFƏ 15-də



Azarkeşlər sevinir, futbolçular narazıdır

SƏHİFƏ 16-da

SOCAR

## Təqaüd proqramının qalibləri tədrisə başlayıblar

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və qardaş Türkiyənin "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkəti arasında 1 iyun 2023-cü il tarixində imzalanmış Anlaşma Memorandumuna əsasən, Zonguldak Bülent Ecevit Universiteti nəzdində fəaliyyət göstərən Çaycuma Peşə Məktəbində azərbaycanlı tələbələrin təhsilinin SOCAR tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulub və bununla bağlı seçim prosesi uğurla tamamlanıb. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

Bildirilib ki, Çaycuma Peşə Məktəbindəki tədris proqramı seçilmiş beş nəfər tələbənin üç il müddətində neft-qaz sənayesində texniki və praktiki bacarıq qazanmalarına şərait yaradacaq.

Qalib tələbələr 15 sentyabr 2024-cü ildən etibarən Türkiyədə tədrisə başlayıblar.

Qeyd edək ki, SOCAR sosial məsuliyyət strategiyasının əsas istiqamətlərindən biri olaraq təhsil və inkişaf sahəsində müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi önəm verir. Bu çərçivədə reallaşdırılan təqaüd və təcrübə proqramları, yalnız şirkətin ehtiyaclarının qarşılanmasında deyil, ölkənin kadr potensialının güclənməsində də əhəmiyyətli rol oynayır.



# ŞƏHİDLƏRİMİZİ EHTİRAMLA ANIRIQ

Cəmi 44 gün ərzində düşmən darmadağın edildi, işğal faktına son qoyuldu, sərhədlərimizin bütövlüyü təmin edildi. Bu hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu üç minə yaxın şəhid verdi. Onların yazdıqları qəhrəmanlıq dastanları bu gün də dillər əzbəridir.

FUAD ABASOĞLU

Uzun illər işğal altında olan torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsinin başlamasından dörd il keçir. 2020-ci il sentyabrın 27-də Silahlı Qüvvələrimizin qəhrəman mənsubları Ali Baş Komandan İlham Əliyevin əmri ilə dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası üçün əks-hücum əməliyyatlarına başladı. Cəmi 44 gün ərzində düşmən darmadağın edildi, 30 illik işğal faktına birdəfəlik son qoyuldu, sərhədlərimizin bütövlüyü təmin edildi. Bu hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu üç minə yaxın şəhid verdi. Onların yazdıqları qəhrəmanlıq dastanları bu gün də dillər əzbəridir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə hər il sentyabrın 27-i Azərbaycanda Anım Günü kimi qeyd olunur, xalqımız şəhidlərini, torpaq uğrunda canlarından keçən ölməz qəhrəmanlarını qürurla anır.

### QƏHRƏMANLARIN XATİRƏSİNİ YAŞADACAQ ZƏFƏR MUZEYİ

Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Prezidenti İlham Əliyev də Bakıda inşası davam etdirilən Zəfər parkında olub. Dövlət başçısı parkın girişində xatirə daşının önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

Sentyabrın 27-də bütün ölkə ərazisində də, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi 12:00-da bir dəqiqəlik sükutla yad olunub.

İnsanlar şəhid əsgər və zabitlərimizin ruhları qarşısında baş əyib, onların xatirəsinə dərin ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib.



## DÜNYA HƏRB TARİXİNİN GÖRMƏDİYİ QƏLƏBƏ

Qeyd edək ki, bizi bu tarixdən dörd illik qısa zaman ayırsa da, hər keçən gün Vətən müharibəsinin əhəmiyyəti, əldə olunan şanlı qələbəni şərtləndirən amillər hələ də geniş təhlil edilir, araşdırılır. Dünyanın əksər aparıcı hərb məktəbləri qəhrəman ordumuzun həyata keçirdiyi əməliyyatları xüsusi diqqətlə öyrənir. Bu nəticə, nümayiş etdirilən peşəkarlıq təbii ki, uzun illər ərzində dövlətin ali rəhbərliyinin ordu quruculuğu, gənc vətənpərvər nəslin yetişməsi istiqamətində yürütdüyü siyasətin təzahürüdür. Azərbaycanda əldə olunmuş ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, ən başlıcası isə xalq-iqtidar birliyi Vətən müharibəsi zamanı hər birimizin eyni amal və məqsəd uğrunda dəmir yumruq kimi Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməyimizlə nəticələndi. Prezident İlham Əliyevin 44 gün ərzində nümayiş etdirdiyi qətiyyət, əzm, dəmir siyasi iradə bütün dünyaya xalqının sarsılmaz Lideri olduğunu, gücünü xalqının ona olan inam və etimadından aldığını göstərdi.

## QALİB ÖLKƏNİN QALİB XALQI, QALİB ORDUSU

İndi biz qalib ölkənin qalib xalqıyıq. Artıq şəhidlərimizi torpaqları işğal altında qalan dövlətin yox, suveren, müstəqil və ərazi bütövlüyü tam təmin edilmiş bir ölkənin vətəndaşları olaraq anırıq. Bu gün Azərbaycan regionun ən güclü ordusuna malik ölkədir. Azərbaycan ordusu istənilən müdaxilənin qarşısını almaq iqtidarındadır. Vətən müharibəsi ilə əldə olunan qələbə dövlətimiz, bölgəmiz hətta hər birimiz üçün yeni reallıqlar, imkanlar yaradıb. Bu qələbənin nəticəsi olaraq işğaldan azad ərazilərimizi qururuq, yaradırıq. Bu işləri görərkən isə daim ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizi ehtiram və qürurla anırıq. Müstəqil Azərbaycan var olduqca, onlar da yaşayacaqlar.

# QARŞIDA DURAN BAŞLICA VƏZİFƏLƏR

**Prezident İlham Əliyev yeni seçilmiş parlamentin ilk iclasındakı çıxışında Azərbaycanın qarşısında duran vəzifələri bir daha gündəmə gətirdi. Qeyd etdi ki, ölkəmiz daha da güclənməli, gənclər vətənpərvərlik ruhunda yetişdirilməli, əhalinin sosial rifahı yaxşılaşdırılmalıdır.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Milli Məclis növbədənkənar seçkilərdən sonra yeni tərkibdə ilk iclasını keçirtdi. Tədbirdə iştirak edən Prezident İlham Əliyev ənənəsinə sadiq qalaraq, bu dəfə də qanunverici orqandakı çıxışında müstəqil və suverenliyini bərpa etmiş Azərbaycanın qarşısında dayanan başlıca hədəfləri və vəzifələri açıqladı.

### HƏRBİ GÜCÜN ARTIRILMASI

Dövlət başçısının müəyyənləşdirdiyi başlıca vəzifələrdən biri Azərbaycanın hərbi gücünün artırılmasıdır. "Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik", - Prezident deyib.

Həqiqətən də bölgəmizdə və ətrafımızda cərəyan edən proseslərə, hadisələrə nəzər saldıqda bu vəzifənin nə dərəcədə əhəmiyyət kəsb etdiyinin bir daha şahidi oluruq. Hələ də Azərbaycanla Ermənistan arasında bölgədə sabitliyin təminatçısı ola biləcək sülh sazişi imzalanmayıb. İrəvan sürətli şəkildə silahlandırılır. Təbii ki, bu təhlükələrin aradan qaldırılması üçün güclü orduya malik olmaq gərəkdir.

## "İSTƏNİLƏN CAVABI VERMƏYƏ HAZIRIQ"

Bəs ölkəmiz bu istiqamətdə hansı addımları atır? Bu sualın cavabını da Ali Baş Komandan parlamentdəki çıxışında qismən də olsa açıqladı. Bildirdi ki, İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ötən müddət ərzində yeni silahlı birləşmələr yaradılıb, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi artırılıb: "Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımı səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".

Bu günlərdə Bakıda keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları



Sərgisi hərbi qüdrətimizi bir daha dünyaya nümayiş etdirir. Bu gün Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Yerli hərbi sənayenin inkişafında başlıca məqsəd həm xarici asılılığı azaltmaq, həm də dünya silah bazarında layiqli yeri tutmaqdır.

Azərbaycan həmçinin hərbi hava gücünün də artırılması istiqamətində əməli addımlar atmaqdadır. Belə ki, bu günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngül çəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunub.

### SAVADLI VƏ VƏTƏNPƏRVƏR GƏNCLİK

Hərbi qüdrətimizin artırılması sərhədlərdə təhlükəsizliyin tam təminindən və ideoloji təhlükəsizlikdən başlayır desək, yanılmarıq. Dövlət başçısının da müəyyənləşdirdiyi vəzifələr arasında bu iki istiqamət xüsusi diqqət tələb edir. Gənc nəslin milli maraqlarımızı təhdid edən hansısa xarici qüvvələrin ideoloji təsirinə düşməməsi və bu təhdidi yaradan çağırışların qarşısının vaxtında alınması güclü və peşəkar, vətənpərvərlik ruhunda böyüyən hərbi kadrların hazırlanması deməkdir. Ali Baş Komandanın da vurğuladığı kimi, elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır.

## AZAD EDİLƏN ƏRAZİLƏRİN BƏRPASI DA PRİORİTETDİR

Söz yox ki, bu gün Azərbaycan dövləti qarşısında dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin öz yurdlarına layiqli qayıdışının təminidir. Bu məqsədlə son dörd ildə mühüm işlər görülüb. Prezident İlham Əliyevin də vurğuladığı kimi, sözügedən istiqamətdə müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır: "Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Eyni zamanda, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və səkkiz mindən çox keçmiş köçkün artıq Qarabağa və Şərqi Zəngəzura yerləşib və hər ay, hər il onların sayı artacaqdır". Dövlətimiz qarşısında dayanan digər mühüm vəzifə insanların sosial rifahının daha da yaxşılaşdırılmasıdır. Prezident bu istiqamətdə də vətəndaşları sevindirəcək qərarların anonsunu verdi: "Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır".



Göründüyü kimi, müstəqil və suverenliyini tam bərpa etmiş Azərbaycan qarşısına qoyduğu vəzifələri ardıcıl şəkildə yerinə yetirir. Buna həm iqtisadi gücümüz, həm də siyasi iradəmiz var. Müəyyənləşdirilən yolda hədəflərə doğru atdığımız addımlar sağlam bünövrəyə, güclü siyasi iradəyə və müstəqil siyasətə əsaslanır. Müasir Azərbaycanın reallığı da məhz budur.



# ABŞ-NİN TƏRƏFLİ "VASİTƏÇİLİYİ"

ABŞ Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Nyu-Yorkda keçirilən görüşündən öncə hansısa inqilabi yekuna dair xüsusi illüziya bəsləməyin əbəs olduğu aydın idi. Tərəflərdən gələn ilkin açıqlamalar da göstərir ki, indi "nəticə nə oldu" deyil, "bu görüş niyə təşkil olunmuşdu" sualı daha aktual səslənir.



RÜSTƏM QARAXANLI

ABŞ Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin sentyabrın 26-da Nyu-Yorkda BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində baş tutan görüşündən sonra ortaya ənənəvi sual çıxır: nəticə nə oldu? Hələ görüşdən öncə hansısa inqilabi yekuna dair xüsusi illüziya bəsləməyin əbəs olduğu aydın idi. Tərəflərdən gələn ilkin açıqlamalar da göstərir ki, indi "nəticə nə oldu" deyil, "bu görüş niyə təşkil olunmuşdu" sualı daha aktual səslənir.

## BLİNKENİN ÜMİDLƏRİ

Görüşün nəticələrini şərh edən vasitəçi tərəf - ABŞ-nin Dövlət katibi A.Blinkenin ofisindən gələn açıqlamanın səthiliyi və süniliyi də qənaətimizi təsdiq edir: "Dövlət katibi Blinken dayanıqlı və layiqli sülh yolunda tərəflərin əldə etdiyi irəliləyişi yüksək qiymətləndirir və hər iki ölkəni razılaşmanın yekun mətninin sonlandırılması üçün fəaliyyəti davam etdirməyə səsləyir. Dövlət katibi qeyd edir ki, sülh razılaşması bölgəyə sabitlik və çiçəklənmə gətirəcək". Və...?

Böyük dövlətlərin, xüsusilə də ABŞ-nin əsas xarici siyasət problemlərindən biri odur ki, Ermənistanla Azərbaycan arasındakı münaqişə kimi proseslərin tarixi barədə yetərincə və hərtərəfli məlumatları olmadığı halda, zorla və israrla öz kabinetlərində hazırladıqları "yol xəritələri"nin reallığa çevrilməsini arzulayırlar. Özü də bunun üçün nəinki real addımlar atırlar, hətta pozitiv nəticənin əldə olunmasına əngəl yaradan gedişlərdən belə çəkinmirlər. Məsələn, Blinken gələcək sabitlik və çiçəklənmədən danışır, ancaq ölkəsinin hərbi kontingentinin 30 il işğalçı olmuş və revanş hissi ilə yaşayan kvazidövlətin hərbçilərinə təlimlər keçdiyini "unudur". Məğlub olmasına və kapitulyasiya aktına imza atmasına baxmayaraq, dörd il əvvəlki razılaşmaya məhəl qoymayan dövlətin sürətlə militaristləşməsi fonunda hansı dayanıqlı sülhdən danışmaq olar?



## ABŞ SEÇKİLƏRİ ÜÇÜN "SÜLH MÜQAVİLƏSİ"

Vaşinqtonun Parislə birgə Ermənistanla Azərbaycan arasında yekun sülhə dair hansısa çərçivə sənədinin imzalanmasına çalışması problemin çözümündən daha çox ABŞ-da keçiriləcək seçkilərin yekununa hesablanıb. Demokratların son hakimiyyətləri dövründə dünyanın yüzminlərlə insanın ölümünə səbəb olmuş qan çanağına çevrilməsi faktdır. ABŞ Ukraynada axan qanın heç də sonuncu səbəbkarı deyil və respublikaçıların namizədi Donald Trampın seçki kampaniyasında bu faktı xüsusilə qabartması Baydeni əvəzləyən Harrisin əsas başağrılarından biridir. Demokratlara hansısa geosiyasi uğur lazımdır və belə görünür ki, Vaşinqtonda Azərbaycanla Ermənistan arasındakı mümkün razılaşmanı ən optimal variant hesab edirlər.

Ancaq gerçəklik bundan ibarətdir ki, ABŞ-da seçkilərin, bölgədə isə xalqların taleyi həll olunur. Azərbaycan siyasi sabitliyi və iqtisadi tərəqqini yekun sülh sazişi olmadan da əldə edib. Özü əldə edib. Bizə indi çiçəklənmə vədləri və proqnozlarından çox tarixi ədalətin bərpa edilməsi lazımdır. Vaşinqtonda və Parisdə kimlərin nə düşünməsindən asılı olmayaraq, biz bu ədaləti bərpa edirik və belə alayarımçıq "sülh təşəbbüsləri" rəsmi Bakını yolundan döndərə bilməz.

## AŞKAR ANTİ-AZƏRBAYCAN MÖVQEYİ

Blinkenin sülhdən danışdığı reallıqda ABŞ-nin birtərəfli siyasi gedişləri, erməni tərəfkeşliyi yekun müqavilə yolunda ən böyük əngəllərdəndir. 30 il tarixi olan və ən azı iki əsrlik tarixi ədalətsizlik üzərində qol-budaq açan problemi bir tək Vaşinqtonun istəyi ilə, özü də ədalətsiz istəyi ilə çözmək mümkün deyil. İndi XXI əsrdir. ABŞ-nin dəyənək geosiyasəti gücünü itirib. Fransanın müstəmləkə siyasəti iflasa uğrayıb. İki müharibə edən dövləti barışdırmaq üçün onlardan birini aşkar müdafiə kursundan ən azı imtina etmək lazımdır.

Bu gün ABŞ həm qanunverici, həm də icra hakimiyyətləri səviyyəsində aşkar anti-Azərbaycan mövqeyində duran bir dövlətdir. ABŞ Konqresində Azərbaycan xalqına düşmən münasibəti bəsləyən şəxslərin müəllifliyi ilə müxtəlif sənədlər və qanunverici aktlar qəbul edilir. Azərbaycanın öz ərazisində kökünü kəsdiyi separatizmin qaçıb aradan çıxmış qalıqlarının nümayəndələri bu ölkənin qanunverici orqanında qəbul edilir, onlara söz verilir və bu gün Blinkenin üzərində "çalışdığı" yekun sülh sənədinin reallıq olmaması üçün siyasi hədyanlar söyləyən erməni psevdodövlət xadimləri alqışlanır, revanşizmə həvəsləndirilir. ABŞ hökumətinin əsas agentliyi olan USAİD Ermənistana maliyyə yardımını iki dəfə artırır, İrəvanın kiber, enerji və sərhədyanı təhlükəsizliyini himayəsi altına alır və siz Vaşinqtonda oturub sülhdən danışırsınız?

Dayanıqlı sülh müqaviləsi o vaxt imzalanır ki, bir dövlətin digərinə qarşı ərazi iddiası konstitusiyasında əks olunmur. Əsl sülh missiyası həmin maddələrin Ermənistan konstitusiyasından çıxarılmasına çalışmaqdır. Bu problem həll ediləndən sonra yekun sülh müqaviləsinin imzalanmasında vasitəçiliyə də ehtiyac olmayacaq. Biz çox seçkiləri gözləmişik, siz də birini yola verin.

# ALMANİYANI GÖZLƏYƏN TƏHLÜKƏ



Hazırda Almaniyanın siyasi mənzərəsi köklü dəyişikliklər yaşayır. Yerli seçkilərdə ifrat sağ və solun qələbəsi kansler Olaf Şolts üçün fəlakət kimi qiymətləndirilir.

AZƏR NURİYEV

Avropanın iqtisadi cəhətdən ən qüdrətli dövləti Almaniyada gələn il kritik seçkilər keçiriləcək. Söhbət kansler seçkilərindən gedir. Bu seçkilərdə mühafizəkar Xristian Demokrat İttifaqının (XDİ) lideri Fridrix Mertzin namizədliyi irəli sürüləcək. Almaniya əhalisinin 30 faizinin dəstəyini əldə edən bu siyasi təşkilatın seçkidə uğur qazanacağı ehtimal edilir. Mühafizəkarlardan kanslerliyə namizəd olacağı ehtimal edilən XDİ-nin rəhbəri miqrant axınının azaldılmasının, sosial bazar iqtisadiyyatı konsepsiyasına qayıtmağın və Ukraynaya aktiv dəstək verilməsinin tərəfdarıdır. O ki qaldı indiki kansler Olaf Şoltsa - Almaniya vətəndaşlarının üçdə ikisi 2025-ci ildə keçiriləcək parlament seçkilərində Sosial Demokrat Partiyasının (SDP) liderinin yenidən kansler postuna namizəd irəli sürülməsinə qarşıdır.

Hazırda Almaniyanın siyasi mənzərəsi köklü dəyişikliklər yaşayır. Yerli seçkilərdə müxalifətin qələbəsi hökumət koalisiyası və kansler Olaf Şolts üçün fəlakət kimi qiymətləndirilir. Almaniyanın şərqində Saksoniya və Türingiya əyalətlərində keçirilən sorğulara əsasən, miqrasiyaya qarşı sərt tədbirlərin görülməsini müdafiə edən ifrat sağçı "Almaniya üçün Alternativ" (AfD) partiyası mövqelərini gücləndirib. Partiya seçki kampaniyasında Almaniyanın hakimiyyət orqanlarının miqrasiya nəzarətini gücləndirməli olduğunu bildirib.

Əksəriyyət hesab edir ki, iqtisadi problemlər, miqrasiya mübahisələri və populizmin yüksəlişi ölkədə rəhbərliyin dəyişilməsi üçün münbit şərait yaradır. Bir zamanlar sabitliyin simvolu olan Olaf Şolts indi vəzifədən kənarlaşdırılma təhlükəsi ilə üz-üzədir. Ölkənin ən kritik regionu - Brandenburqdakı seçkilərin nəticələri təkcə bu əyalətin rəhbərliyini deyil, Almaniyanın ümumi siyasi gələcəyini müəyyən edəcək.

### NÖVBƏTİ AYLAR HƏLLEDİCİ OLACAQ

Növbəti aylar Şolts, partiyası və bütövlükdə ölkə üçün həlledici olacaq. SDP hakimiyyətdə qalacaqmı, yoxsa Almaniya daha sağa meyl edəcək? Almaniyanın bütün sərhədlərində müvəqqəti nəzarətin tətbiqi və miqrantların ölkəyə birbaşa girişinin qadağan edilib-edilməməsi ilə bağlı polemikalar hazırda ölkənin əsas müzakirə mövzusudur. İqtidar və müxalifət nümayəndələri hələ də miqrasiya qanunvericiliyində islahatlarla bağlı ortaq məxrəc tapa bilməyiblər. Elə bir gün olmur ki, Almaniyada miqrasiya siyasəti ilə bağlı davam edən müzakirələrdə yeni fikirlər ortaya çıxmasın. Daxili işlər naziri Nensi Fezer elan edib ki, miqrantların sığınacaq müraciətlərinə rədd cavabı veriləcək.

### MİQRANTLAR ÜÇÜN DƏ ÇƏTİN DÖVR BAŞLAYIR

Ümumiyyətlə, Almaniyada miqrantlar üçün də çətin dövr başlayır. Olaf Şolts keçən həftə bıçaqla silahlanmış terrorçunun yerli şənlik iştirakçılarına hücum edərək üç nəfəri öldürdüyü Solingen şəhərinə səfəri zamanı ölkədən deportasiyanı artıracağını vəd edib. Polis hadisəni törədənin Suriyadan olan 26 yaşlı İŞİD üzvü olduğunu bildirib. Ölən üç nəfərdən əlavə, səkkiz nəfər yaralanıb. Hücum Almaniyada sağçı əhval-ruhiyyəni gücləndirib və hökumətin miqrasiya proqramına qarşı tənqidlərə səbəb olub. Bu, Şoltsun siyasi reytinqinə də ağır zərbə vurub.

Federal polis bu ilin ilk altı ayında qeyri-qanuni miqrantların yarıdan çoxunun ölkəyə girişinə icazə verilmədiyini açıqlayıb.

## UKRAYNANIN DƏSTƏKÇİSİ - MERTZ

Miqrasiya qanunlarının sərtləşdirilməsinin ölkənin birbaşa Ukrayna siyasəti ilə də bağlılığı var. Çünki miqrantların əksəriyyəti məhz Ukraynadandır. Bu fonda Şoltsun rəqibi Fridrix Mertzin Ukrayna müharibəsinə baxışları diqqət çəkir. Qeyd edək ki, o, 2022-ci ildə Kiyevə ilk səfər edənlərdən biri olub və o vaxtdan Ukraynaya maksimum dəstəyin tərəfdarı kimi ad çıxarıb. Mertz dəfələrlə Almaniya hökumətinin Kiyevi döyüş sursatı və qabaqcıl silah sistemləri ilə təchiz etmək üçün "ləng və qətiyyətsiz" hərəkətlərini kəskin tənqid edib. O, Almaniyanı Kiyevi TAURUS raketləri ilə təchiz etməyə çağırır, Olaf Şolts isə buna qarşıdır. Bu yay Mertz Almaniyanın Kiyevə hərbi dəstəyini, xüsusən də qırıcı təyyarələrin tədarükü ilə gücləndirilməsinin tərəfdarı olduğunu bildirib. "İnanıram ki, biz Ukraynaya heç olmasa öz hava məkanı üzərində suverenliyi bərpa etməkdə kömək etməliyik, çünki infrastruktura, elektrik və su təchizatına, xəstəxanalara və qocalar evlərinə edilən bu raket hücumları yalnız yerdən idarə oluna bilməz", - deyə Mertz ARD telekanalının "Frag selbst" proqramına müsahibəsində bildirib.

### DİGƏR NAMİZƏDLƏR

Sosioloji məlumatlara əsasən, ehtimal etmək olar ki, 2025-ci il seçkilərindən sonra hökumətin formalaşdırılmasında XDS/XSS-in ən ehtimal olunan tərəfdaşı ASDP olacaq. Hazırda partiya federal səviyyədə sorğularda 14-15% səs toplayır və konservativ blokdan iki dəfədən çox geri qalır. Həm partiyanın özünün, həm də Şoltsun reytinqinin əhəmiyyətli dərəcədə düşməsinə baxmayaraq, sosial-demokratlar hələlik öz namizədlərini dəyişdirmək niyyətində deyillər.

"Yaşıllar"a gəldikdə, onların şanssız namizədi hazırkı iqtisadiyyat və iqlim naziri Robert Habek olacaq. O, xarici işlər naziri Annalena Berbokun kansler vəzifəsinə iddialarından könüllü imtina etməsindən sonra partiyadan alternativsiz namizəd olub.

"Almaniya üçün Alternativ" hələ öz namizədini elan etməyib, hərçənd bu ilin yayında partiyanın həmsədri Tino Xrupalla müsahibələrinin birində bildirmişdi ki, digər həmsədr Alisa Vaydelin namizədliyini dəstəkləyir. O, 2025-ci ildə kansler vəzifəsinə iddialı olan ikinci qadın ola bilər. Birincisi, təbii ki, Sara Vagenknextdir.

Beləliklə, digər Avropa dövlətləri kimi, Almaniya da ifrat sağların nəzarətinə keçə bilər. Bu isə ölkə üçün yaxşı nəsə vəd etmir. Millətçi qanadın güclənməsi ilə miqrantlara qarşı radikallıq artacaq.




BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ƏSRARƏNGİZ ŞUŞANIN TƏBİƏTİ DƏ ÖZÜ KİMİ SİRLİ VƏ TƏKRAROLUNMAZDIR

# OVUC İÇİNDƏKİ NAĞIL

Şuşa qonaqlarını yeniləşən və dirçələn siması ilə qarşılayır. 30 il ərzində yorulduğu əsirlikdən, cana doyduğu müharibədən indi nəfəs alan kimidir. Sürətlə bərpa olunur, quruculuq işləri gedir.









TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Şuşaya gedirik... İşğaldan azad olunan torpaqları bir-bir geridə qoyub Zəfər yolu ilə yuxarı qalxdıqca sıldırım qayaların üzərində əzəmətlə qərar tutan qala şəhərin məğrur duruşu ziyarətçiləri uzaqdan heyran edir. “Ermənilər bu illər ərzində Şuşanı təsadüfən əsirlikdə saxlamayıblar”, - deyə səfər yoldaşlarımızla dərindən köksümüzü ötürürük. İrəlilədikcə yolumuzu kəsən duman qatılaşır. “Buraların havasını bilmək olmur, gah tutulur, gah açılır, gah qəfil yağış yağır, gah külək əsir. Hələ qarını, şaxtasını görəsən... Dağlarının dumanı isə həmişə var. Təbiəti də Şuşa kimi sirli və əsrarəngizdir”, - deyə avtobusdakı qonaqlardan hansısa dillənir.

### QONAQLARINA GÜLÜMSƏYƏN ŞƏHƏR

Şuşa ovuc içində nağıla bənzəyir. Şəhər hər gələn qonağını yeniləşən və dirçələn siması ilə qarşılayır. 30 il ərzində yorulduğu əsirlikdən, cana doyduğu müharibədən indi nəfəs alan kimidir. Sürətlə bərpa olunur, quruculuq işləri gedir. Erməni vandallarının vəhşiliklə işğal etdiyi şəhərdə uzun illərdən sonra yeni həyatın necə doğulduğuna heyranlıq və qürurla tamaşa edirik. Bu, insanı təsirləndirən unikal bir mənzərədir.

Şuşa qonaqlarının üzünə gülümsəyir. Şəhərə ayaq basan hər kəs kimi biz də Cıdır düzünün füsunkar və əzəmətli mənzərəsini, Şuşa fatehlərinin sıldırım qayalarına dırmandığı dağlarını seyr etməyə, İsa bulağına enib buz kimi suyundan içməyə, güllələnmiş heykəllərin - Üzeyir bəyin, Xan qızı Natəvanın, Bülbülün nəhayət, yurdunda azad nəfəs alan büstləri yanında şəkilləri əbədiləşdirməyə tələsirik. Sonra ayaq götürüb Şirin su hamamına, Şuşa qala divarlarına, Gəncə qapısına, Mehmandarovların mülkünə, Xan qızının daşı daş üstə qalmayan malikanəsinə tərəf yollanırıq. Qənbər daş döşənmiş yollardan enib Yuxarı Gövhər Ağa Məscidinə çatırıq. Şəhərin yarı dağıdılan, yarı sağ qalan tarixi binalarına baxmağın ayrı bir kədəri var. Tikililərin divarlarındakı güllə izlərini ürək ağrısıyla izləyirik...

### ŞUŞALILARIN SEVİNCİ

Şuşada hər tərəf baxılıb-görülməli, ziyarət olunmalıdır. Şuşalılar təkcə şəhərin son 30 illik tarixini deyil, xanlıq dövrünü də yaxşı bilir, gələn qonaqlara həvəslə danışırlar.

Şuşadan olan məcburi köçkünlərin doğma şəhərə qayıdışı artıq may ayından başlayıb. Onlar yeni tikilmiş, müasir binalarda mənzillərlə təmin olunublar. İndi bu evlər insana gülümsəyən kimi görünür. Şuşalılar dədə-baba yurdlarına qovuşmalarını böyük sevinc hissi ilə qarşılayıb, şəhərin bərpasına və yenidən qurulmasına görə ölkə başçısına minnətdarlıq, şəhidlərimizin ruhuna dua edirlər. Doğma torpaqlarına mərhələli şəkildə köçlərini gözləyən şuşalılar isə ayları, günləri sayırlar....







## DİNİ MƏSƏLƏLƏRLƏ BAĞLI HƏSSAS MƏQAMLAR

Şuşa başdan-ayağa poeziya, musiqi, ürəyə toxunan hisslər şəhəridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Ramin Məmmədovun “Sizi Dövlət Komitəsinin sədri kimi deyil, həm də 30 il öncə bu möhtəşəm şəhərdə uşaqlığını itirmiş Şuşa sakini kimi salamlayıram”, - deyə qurumun təşkil etdiyi seminara bu cür sentimental başlanğıc verməsi də elə bu torpağın ruhundan qaynaqlanır.

DQİDK-nin və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə “İdeoloji mübarizədə din amili: mediadan gözləntilər” mövzusunda təşkil olunan seminarın məhz Şuşada keçirilməsi də təsadüfi deyil. ”Bu torpaqlarda Azərbaycan xalqına məxsus yüzlərlə dini və tarixi abidə məhv edilib. Məscidlərimiz təhqir olunub, dini məbədlərimizin tarixinin saxtalaşdırılmasına cəhd edilib. Ancaq bu gün dövlətimiz tərəfindən dini və mədəniyyət abidələrimiz bərpa olunur. Media nümayəndələri üçün informasiyanın nə qədər mühüm əhəmiyyət kəsb etdiyi məlumdur. İdeoloji təhlükəsizliklə jurnalistin peşəkar fəaliyyəti arasında sərhədlər haqqında da aydın təsəvvür olmalıdır. Məsələnin mürəkkəbliyi də burasındadır ki, ideologiya da informasiya istehsalı qədər geniş bir sahədir və burada sərhədləri müəyyən etmək olduqca çətindir”. Bu fikirlər seminarda qızğın müzakirələrə yol açdı. Dövlət orqanlarının rəsmiləri, media və ictimaiyyət nümayəndələri, ziyalıların iştirak etdiyi seminar “Dini etiqad azadlığı və azad media: sərhədlər haradan başlayır?”, “Dini radikalizmlə mübarizə və media” mövzusunda sessiyalarla və panel müzakirələri ilə davam etdi. Dini məsələlərlə bağlı həssas məqamlar haqqında jurnalistlərin biliklərinin artırılması, ölkədə dövlət-din münasibətləri modeli barədə ictimaiyyətin daha geniş məlumatlandırılmasının təmin edilməsi, cəmiyyətin dini məsələlərlə bağlı maariflənməsində medianın rolu, media savadlılığının artırılması və s. məsələlər müzakirə olundu.

## XANKƏNDİNƏ VƏ AĞDAMA DOĞRU

Seminar çərçivəsində Şuşadan 20 dəqiqəlik məsafədə - Xankəndi şəhərində fəaliyyətə başlayan Qarabağ Universitetinin rəhbərliyi ilə görüş, dərslərin başladığı auditoriyalarla tanışlıq tarixin əhəmiyyətli bir səhifəsi ilə tanışlıq kimi yaddaşımıza yazıldı.

Ağdam rayonuna səfərimiz isə erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrini, dağıdılmış evləri yaxından izləməyə yol açdı. “Qarabağın dini memarlığının monumental örnəklərindən olan Ağdam Cümə məscidi şəhərdəə tam dağıdılmayan tək tikilidir. Burada mal-qara və donuzlar saxlanıb və divarı qraffiti ilə vandalizmə məruz qoyulub. Bərpa layihəsi çərçivəsində məscid əvvəlki görkəminə qaytarılıb”, - deyə məlumat verildi.

Tədbir iştirakçıları yenicə açılan İmarət Kompleksinin ilk ziyarətçilərindən oldular. İnteraktiv muzey kompleksində müxtəlif zamanlarda Cavanşirlər sülaləsinə həsr olunmuş məlumatlar, türbələr, Qarabağ xanlığı haqqında tarixi faktlar, Xurşidbanu Natəvanın əl işlərinə və poemalarına həsr olunmuş audiovizual təqdimat, fotomateriallar nümayiş olunur.



## KEYFİYYƏTSİZ ZƏRGƏRLİK MƏHSULLARI KÜTLƏVİ ŞƏKİLDƏ BAZARA AYAQ AÇIB

# PARILTISINA YOX, KEYFİYYƏTİNƏ BAXIN

Əyar nəzarətinin olmaması keyfiyyətsiz zərgərlik məhsullarının kütləvi şəkildə bazara ayaq açması ilə nəticələnib. Bu isə vətəndaşların bazarda aldadılma riskini artırır. Ekspertlər bu sahədə nəzarətedici bir qurumun yaradılmasının vacibliyini vurğulayırlar.

SEVİNC ABBASOVA

Azərbaycanda zərgərlik bazarı saxta qızıl satışı üçün əlverişli məkana çevrilib. Mütəxəssislərin fikrincə, bu sahədə əyar nəzarətinin olmaması keyfiyyətsiz məhsulların kütləvi şəkildə bazara ayaq açması ilə nəticələnib. Bu isə vətəndaşların bazarda aldadılma riskini artırır.

Bəs, görəsən, zərgərlik bazarında əyar nəzarətinin yetərli olmamasına səbəb nədir? Vətəndaşlar qızıl alarkən aldanmamaq üçün nələrə diqqət etməlidirlər?

### NƏZARƏTSİZ BAZAR

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib ki, hazırda qızıl bazarında heç bir nəzarət mexanizmi mövcud deyil: "2019-cu ilə kimi bazara Əyar Palatası nəzarət edirdi. Palata qızıl məmulatlarını yoxlayır, keyfiyyəti standartlara cavab verən məhsulların üzərinə öz möhürünü vururdu. Biz də vətəndaşlara bildirirdik ki, qızıl alarkən mütləq məhsulun üzərində Əyar Palatasının "rombvari" damğasının olub-olmamasına diqqət yetirsinlər. Əgər məmulatın üzərində damğa var idisə, deməli, qızıl keyfiyyətli idi. Amma indi bazarda vəziyyət tamamilə fərqlidir. Təxminən altı ilə yaxındır ki, Əyar Palatası ləğv edilib və əvəzində heç bir qurum yaradılmayıb. Nəticədə qızıl bazarı nəzarətsiz qalıb və bazarın ən çirklənmiş seqmetlərindən birinə çevrilib. Bu sahədə böyük anarxiya var. Qanunlardakı boşluqlar səbəbindən biz istehlakçılara yol göstərə bilmirik".



Eyyub Hüseynov

E.Hüseynovun fikrincə, hökumət tərəfindən bu istiqamətdə zəruri addımların atılmasına ehtiyac var: "Hesab edirəm ki, Əyar Palatası və ya buna bənzər bir qurum yaradılmalıdır".

### KASSA ÇEKİ VƏ SERTİFİKAT TƏLƏB EDİN

"Azərbaycan Zərgərlər Assosiasiyası"nın İdarə Heyəti sədrinin müavini Rövşən Əmircanov isə bildirib ki, bazarda mövcud olan nöqsanların aradan qaldırılmasında iri bazar iştirakçıları da maraqlıdırlar: "Əyar nəzarətinin olmaması nəticəsində bazarda kifayət qədər saxta malların olması zərgərlərin, həmçinin də vətəndaşların aldanma riskinin yüksək olmasına gətirib çıxarır. İstehlakçılar qızıl və zinət məmulatları aldıqları zaman qızılın keyfiyyətinin 585, 750, 999.9 və ya digər əyara uyğunluğunu göstərən sənədləri, qiymətli daşların çəkisi, xalisliyi, rəng şkalası və digər parametrləri əks etdirən sertifikatları, həmçinin kassa çeki tələb etməlidirlər".









R.Əmircanov vurğulayıb ki, Zərgərlər Assosiasiyası tərəfindən mütəmadi olaraq sahibkarlar arasında maarifləndirmə işləri aparılır. Sahibkarlara qurumun əməkdaşlıq etdiyi müvafiq laboratoriyalarda ödənişsiz şəkildə qızıl məmulatlarının keyfiyyətini yoxlatmaları üçün dəstək göstərilir: "Bildiyiniz kimi, Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti 2019-cu ildə ləğv edilib və funksiyaları heç bir quruma həvalə edilməyib. "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunun 10.3-cü bəndinə əsasən, sahibkarlıq fəaliyyətinin subyektləri tərəfindən istehsal edilmiş, habelə ölkə ərazisində satışa çıxarılmış qiymətli metallardan və qiymətli daşlardan olan zərgərlik və digər məişət məmulatları dövlət əyar damğası ilə damğalanmalıdır. Hazırda keyfiyyətə nəzarət mexanizminin, qiymətli metallar və qiymətli daşlar, onlardan hazırlanmış məmulatların dövlət nəzarəti və tənzimlənməsi istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən müvafiq addımlar atılır".

### DÖRD YENİ STANDART QƏBUL OLUNACAQ

R.Əmircanov qeyd edib ki, ölkədə istehsal olunan və satılan zərgərlik məmulatlarına dair keyfiyyət meyarlarının yaradılması məqsədilə yeni standartlar qəbul olunub: "Bununla bağlı 2021-ci ildə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Azərbaycan Standartlaşdırma İnstitutu, Azərbaycan Zərgərlər Assosiasiyası İctimai Birliyi və "AzerGold" QSC-nin nümayəndələrindən ibarət tərkibdə "Qiymətli metallar və qiymətli daşlar" standartlaşdırılması üzrə Texniki Komitə təsis edilib. Komitənin fəaliyyət göstərdiyi üç il ərzində bu sahə üzrə 12 dövlət standartı qəbul olunub. Cari il ərzində daha dörd standart layihəsinin qanunvericiliyə uyğun olaraq dövlət reyestrinə daxil edilməsi nəzərdə tutulur".



Rövşən Əmircanov

## "ZİNYƏT ƏŞYALARI ALARKƏN BEŞ MANAT UCUZA QAÇMAQ RİSK DEMƏKDİR"

İqtisadçı Fuad İbrahimov da hesab edir ki, bu sahədə dövlətə məxsus institutun olması mütləqdir. "Müasir dövrdə insanların ehtiyat fondunu formalaşdıran bir neçə vasitə mövcuddur. Bu ehtiyat nağd vəsait, daşınmaz əmlak, o cümlədən qızıl formasında yaradıla bilər. Qızıl əlvan metallar arasında ən qiymətli hesab olunmaqla yanaşı, eyni zamanda hər kəsin iqtisadi cəhətdən güvən yeridir. Vətəndaşlar bununla öz risklərini diversifikasiya edirlər. Əgər bu qiymətli metal vətəndaşın aldığı dəyərdə deyilsə, həmin istehlakçı aldanır. Vətəndaş keyfiyyətli məhsul aldığına əmin olmalıdır. Ona görə də, adı nə olur olsun, bu sahədə dövlətin nəzarəti altında bir qurum yaradılmalıdır".



Fuad İbrahimov

Ekspert deyib ki, hazırda bəzi satış mərkəzlərində qızıl məmulatlarının keyfiyyətini yoxlamaq mümkündür. Amma bu iş vətəndaş səviyyəsində həyata keçirildiyindən yetərli saymaq olmaz: "Bu gün qızılın dövriyyəsini şəffaflaşdıra bilmiriksə, bu, həm dövlətin, həm vətəndaşın ziyanınadır. Vətəndaş belə hallarla qarşılaşdıqda hüquq-mühafizə orqanlarına və məhkəmələrə, eyni zamanda, keyfiyyətsiz məhsul aldığı mağazanın rəhbərliyinə müraciət edə bilər. Amma bunun mexanizmi olmadığından müraciətlərin əhəmiyyəti olmayacaq. Bu baxımdan İqtisadiyyat Nazirliyi mütləq nəzarətedici qurumun yaradılması istiqamətində hökumət qarşısında məsələ qaldırmalıdır. Bu sahədə pərakəndəliyə son qoyulmalıdır".

Ekspert tövsiyə edib ki, vətəndaşlar qızıl məmulatı seçərkən mağazalara xüsusi diqqət yetirməlidirlər: "Haradan gəldi mal almaq olmaz. Bakı şəhərində 3-4 yerdə illərlə formalaşmış qızıl bazarı var. Beş manat ucuza qaçmaq risk deməkdir. Vətəndaşlara tövsiyəm odur ki, zərgərlik məmulatı alarkən onun sertifikatını istəsinlər. Hər hansı bir problem yarananda da, şikayət üçün sübutları olsun".

KANADADA PROFESSOR ADINI ALAN İLK AZƏRBAYCANLI ARZU SƏRDARLININ MARAQLI HƏYAT HEKAYƏSİ "KASPİ"DƏ

# QLOBAL DÜŞÜNÜB, LOKAL YAŞAMALIYIQ



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



**Kanadada ilk azərbaycanlı professor Arzu Sərdarlı:** "Zərdab rayonundan bir tələbəm var idi, ona evdən bir qəpik də kömək olunmurdu. O, burada fəlsəfə doktoru oldu. Ümumiyyətlə, mənim burada tanıdığım bütün azərbaycanlı gənclər çox aktiv, savadlı, zəhmətkeşdirlər".

Gənc vaxtı eşitdiyi "heç azərbaycanlıların fizika ilə məşğul olduğunu görməmişdim" cümləsi karyera yolunda ən böyük silahı olub. Məhz bu cümlədən aldığı güclə millətlər içində özünü sübut edib, hətta yaşadığı ölkədə fizika sahəsində ilk azərbaycanlı professor adını alıb.

Müsahibimiz Kanadada professor adını alan ilk azərbaycanlı Arzu Sərdarlıdır.

Goranboy rayonunda anadan olub və orta təhsilini də burada alıb. Ali təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika fakültəsində davam etdirib. Bir müddət Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda işlədikdən sonra 1993-cü ildə Ukraynaya köçüb. Ukrayna Elmlər Akademiyasının Yarımkeçiricilər Fizikası İnstitutunda fəaliyyət göstərib, burada gənc alimlər üçün prezident təqaüdünə layiq görülüb. 1999-cu ildən Kanadada yaşamağa başlayıb. Kanadanın Alberta Universitetində riyaziyyat və fizikanı tədris edib. 2007-ci ildən müəllimlik fəaliyyətini Kanada Birinci Millətlər Universitetində (Firts Nations Univercity of Canada) davam etdirir. O, həmçinin, 2016-cı ildə Kanadada Tam Professor (Full Professor) akademik rütbəsini alaraq ilkə imza atır. Həmsöhbətimiz müxtəlif elmi nailiyyətlər və mükafatlar sahibdir.

### GEN, MƏKTƏB VƏ MÜHİT...

● **Arzu bəy, Ukraynada və Kanadada riyazi biliklərinizlə seçilmisiniz. Elmə olan maraq və riyazi istedad sizcə, haradan qaynaqlanıb?**

● Nəslimizdə məşhur riyaziyyatçı, fiziklər olub. Məsələn, Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinin yaradıcılarından biri və ilk dekanı Mədət Sərdarlı bizim nəsildəndir. Valideynlərimin ali təhsili olmayıb, amma bizi təhsilə yönəldiblər. Peşəmlə bağlı uğurlarımda müəllimlərimin fəaliyyəti danılmazdır. Gen, məktəb və mühit məni fizik və riyaziyyatçı kimi yetişdirib. Ən əsası, sevdiyim sahə olduğu üçün uğur qazanmışam. Məsələn, yadımdadır ki, valideynlərim həkim olmağımı istəyirdilər. Amma onlar gördülər ki, bu sahəni sevmirəm, mənə mane olmadılar. Uşaqlıqdan marağım hansı sahəyə olubsa, o istiqamətdə də üzərimdə çalışmışam.

## "İnsanlar sosial mediaya inanırsa, elm adamları bunu öyrənməlidirlər"

● **İllərdir vətəndən kənarda yaşasanız da azərbaycançılıq məfkurəsinə bağlı olduğunuzu, övladlarınızı da bu ruhda böyütdüyünüzü bildirirsiniz. Onları böyüdərkən nələrə diqqət edirdiniz?**

● Burada ancaq öz xidmətim olmayıb. Həyat yoldaşım və yaşadığımız mühit də buna imkan yaradıb. Kanada mühacirlər ölkəsidir və dövlətin siyasəti yeni gələnləri assimilyasiya etməyə yönəlməyib. Nəzərə alın ki, uşaq vaxtının çox hissəsini məktəbdə, bağçada keçirir. Övladlarım öz məktəblərində Azərbaycanla bağlı təqdimatlar hazırlayırdılar. Biz də valideynləri olaraq ölkəmizlə bağlı danışır, onları azərbaycanlı kimi böyütməyə çalışırdıq. Amma bunu qadağalar və ya məcburiyyətlə deyil, sevgi ilə edirdik. Sonradan uşaqlarımın da özlərini azərbaycanlı kimi hiss etdiklərini gördüm. Məsələn, ölkəmizə səfər edərkən oradan nə gətirim deyəndə, qızım kəlağayı, oğlum isə işlədiyi məktəbdə tədbirdə geyinmək üçün milli geyim istəmişdi.

● **Aktiv sosial şəbəkə istifadəçisi deyilsiniz. Sizcə, sosial şəbəkələr inkişafa mane olur, yoxsa əksinə?**

● Bu suala birmənalı cavab vermək mümkün deyil. Sosial şəbəkələri pisləyənlər də var, tərifləyənlər də. Mənə elə gəlir ki, həqiqət haradasa, ortadadır. Sosial şəbəkələr yenilikdir. Tarixən hər bir yeniliyə qarşı həmişə hərəkət olub, qarşısını da almaq mümkün olmayıb. Sosial mediadan həm mənfi, həm də müsbət şəkildə istifadə etmək mümkündür. Mən müsbət tərəfləri daha çoxdur deyərdim. Amma sosial şəbəkələrdə hazırda bir məqam məni narahat edir. Məsələn, ömrünün 45 ilini fizikaya sərf etmiş bir müəllim və tədqiqatçı olaraq, Nyutonun fizika qanunlarını izah etmək üçün təxminən, dörd ay mühazirə oxuyuram ki, tələbələr anlasın. Amma təhsili, savadı məlum olmayan bir sosial şəbəkə istifadəçisi öz səhifəsində yazır ki, Nyutonun bütün qanunları yalandır, qravitasiya yoxdur, yer planeti yuvarlaq deyil, müstəvidir və s. Təəssüfləndirici məqam odur ki, əksəriyyət ona inanır. Ola bilər ki, professorun danışığı insanlara yorucu gəlir, sosial şəbəkədə bunu yazan onları daha yaxşı maraqlandıra bilir. Təbii ki, bunun qarşısını qadağa ilə almaq olmaz. Düşünürəm ki, Nyutonun qanunlarını daha cəlbedici şəkildə izah etməliyəm. İndi biz iş yoldaşlarımızla elmi sosial şəbəkədə təbliğ etməklə bağlı insanları maraqlandıran layihə üzərində işləməyi planlayırıq. İnsanlar sosial mediaya inanırsa, elm adamları da bu platformadan istifadə etməyi öyrənməlidirlər.

### "GƏNC NƏSİL BİR ÇOX PARAMETRLƏRİNƏ GÖRƏ BİZDƏN DAHA ÜSTÜNDÜR"

● **Adətən, yaşlı nəsil müasir gənclikdən tez-tez şikayətlənir. Uzun illər tələbələrlə işləyən müəllim kimi gəncliyi necə qiymətləndirirsiniz?**

● İnkişaf dialektikası inkarı inkarın üzərində qurulur. Bizim nəsil də özümüzdən əvvəlki nəsli müəyyən mənada inkar edib. Bu, elmdə də belədir. Məsələn, Eynşteyn fizikası Nyuton fizikasının fundamentallığını müəyyən mənada inkar edir. Amma hesab edirəm ki, gənc nəsil bir çox parametrlərinə görə bizdən daha üstündür. Gəlin, etiraf edək ki, məndən əvvəlki və qismən də mənim mənsub olduğum nəsil Azərbaycanın ərazi bütövlüyünü bərpa edə bilmədik. Buna məhz indiki gənc nəsil nail oldu. Mənə elə gəlir ki, düzgün istiqamət seçilsə, bu qələbə ruhu indiki gənc nəslin başqa sahələrdə də uğur qazanmasının zəmini ola bilər. Mən gənclərlə işləyirəm və bunu müşahidə edirəm. Əksər sahələrdə bizim nəsildən irəlidə gedirlər, daha çox iş görürlər. Gənclərlə bağlı ümidlərim böyükdür. Təbii ki, təkcə yaşlı nəsil gəncləri inkar etmir, gənclər də bizim nəsildə bəzi şeyləri mənfi hesab edirlər. Məsələn, məndən yuxarı nəsillər mobil telefondan istifadə etməyin əleyhinə idilər. Amma bu, yenilik idi. Bəlkə bizdən sonrakı nəsil elə bir şey icad edəcək ki, telefona mənfi baxacaqlar. Bu, təbii prosesdir. Mənim gənclərlə bağlı, xüsusilə də Kanadada tanıdığım azərbaycanlı gənclərlə bağlı fikirlərim müsbətdir və əksəriyyəti ilə fəxr edirəm. Həmyerlilərimiz heç bir ölkə nümayəndəsindən geri qalmırlar, əksinə, irəli gedirlər. Elə bir azərbaycanlı gənc tanımıram ki, buraya gəlsin və özünə yer edə bilməsin. Təbii ki, problemlərlə də üzləşirlər, amma öhdəsindən gəlirlər, mübarizə aparırlar.

*"Mənim gənclərlə bağlı, xüsusilə də Kanadada tanıdığım azərbaycanlı gənclərlə bağlı fikirlərim müsbətdir və əksəriyyəti ilə fəxr edirəm. Həmyerlilərimiz heç bir ölkə nümayəndəsindən geri qalmırlar, əksinə, irəli gedirlər."*

### "AZƏRBAYCANLI GƏNCLƏR ÇOX AKTİV, SAVADLI, ZƏHMƏTKEŞDİRLƏR"

● **Kanadada professor adı verilərkən "sən bu adı alan ilk azərbaycanlısan" fikrini eşidəndə çox qürurlandım deyirsiniz. İlk olmaq necə hissdir?**

● 1987-88-ci ildə Moskvada Bərk Cisimlər Fizikası İnstitutunda təcrübə keçirdim. Ezamiyyət vərəqəsini kadrlar şöbəsinə aparanda mənə dedilər ki, sən Azərbaycandan gəlmisən? Dedim "bəli, azərbaycanlıyam". İndiyə kimi unutmadığım ifadə ilə mənə dedi ki, "heç azərbaycanlıların fizika ilə məşğul olmasını görməmişəm". Bu söz mənə pis təsir etdi. Ondan sonra işimlə bağlı hara gedirdimsə, hansı uğurum olurdusa, mütləq azərbaycanlı olduğumu vurğulayırdım. Kanadada professor olmaq mənim üçün xüsusi bir məna kəsb etmir. Amma Kanadada ilk azərbaycanlı professor olmaq, məhz azərbaycanlı sözünün qeyd edilməsi mənim üçün daha əhəmiyyətlidir. Burada çox adam özünə professor deyir, amma professor olmaq üçün üç səviyyəni keçməlisən və bu, çox ağır prosesdir. Bu ad mənə veriləndə sənədi təsdiq edən dedi ki, biz araşdırdıq, sən Kanadada ilk azərbaycanlı "full professor" adını almış insansan. Azərbaycanlı adımın hallanması mənə çox xoş təsir etdi. Məni ən çox xoşbəxt edən məqam isə odur ki, xaricdə qazandığım bütün nailiyyətlərin arxasında Azərbaycanda aldığım təhsil dayanır. Azərbaycan çox unikal bir coğrafiyada, Qərblə Şərqin qovşağında yerləşir. Mən bilərəkdən "sərhəd" sözünü işlətmirəm. Məhz qovşağında. Bu coğrafi mövqeyimiz bizə imkan verir ki, həm Qərbdən, həm də Şərqdən ən yaxşı olanı götürək.



● **Bəzi tələbələr tək Azərbaycan təhsili ilə xaricdə uğur qazanmağın mümkün olmayacağını, yaxşı təhsilin yaxşı puldan keçdiyini düşünürlər.**

● Bu düşüncəni düzgün hesab etmirəm. Kanadaya xaricdən çox tələbə gəlir. Məsələn, burada bir azərbaycanlı ailə tanıyıram, əvvəlcə qadın oxudu, kişi işlədi, sonra kişi oxudu, qadın işlədi. Bakalavr təhsilini Azərbaycanda almışdılar. Zərdab rayonundan bir tələbəm var idi, ona evdən bir qəpik də kömək olunmurdu. O, burada fəlsəfə doktoru oldu. Ümumiyyətlə, mənim burada tanıdığım bütün azərbaycanlı gənclər çox aktiv, savadlı, zəhmətkeşdirlər.



## "ƏN YAXŞI TƏBLİĞAT ŞƏXSİ NÜMUNƏNDƏ GÖSTƏRMƏKDİR"

● **Vətəndən kənarda yaşayan hər bir soydaşımız Azərbaycanın könüllü elçisidir deyirsiniz. Sizcə, soydaşlarımız Azərbaycanı xaricdə necə təmsil etməlidir?**

● Ən yaxşı təbliğat şəxsi nümunəndə göstərməkdir. Məsələn, iki saat Azərbaycanın elmindən, təhsilindən danışa bilərik, amma bir azərbaycanlının uğurları ən yaxşı təbliğatdır. Yəni danışmaq deyil, göstərmək əsasdır. Mən müşahidə edirəm, bəzi xalqlar burada 10 illərlə yaşasalar da, nə dil öyrənirlər, nə cəmiyyətə qarışırlar. Bizim gənclər belə deyillər. Millət vəkilləri ilə görüşür, milli bayramlarımızı təşkil edirlər.

● **Sizcə, xaricdə uğur qazanmaq ancaq təhsillə olur?**

● Mən düşünmürəm ki, hər kəs mütləq şəkildə ali təhsil almalıdır. İnsan nə işlə məşğul olur olsun, peşəkar olmaq üçün çalışmalıdır. Kanadada şəxsən tanıdığım peşəkar bağban var. Hesab edirəm ki, o, öz sahəsində məndən daha çox irəli gedib. Kanadanın sərt şəraitində tropik meyvələri yetişdirir və işinin peşəkarıdır. Eləcə də digər peşə sahibləri. Mənim üçün ən vacibi peşəkarlıqdır.

● **Kifayət qədər nailiyyətləri olan alimsiniz, amma valideyn üçün ən önəmli nailiyyət övladdır deyirsiniz. Hazırda bəzi gənclər karyeranın ailədən önəmli olduğunu düşünür, hətta son zamanlar ailə qurmaq istəyənlərin sayı azalır. Buna münasibətiniz necədir?**

● Mənim ailə institutuna münasibətim dini əqidəmlə şərtlənir. Ailə qurmaq, dünyaya övlad gətirmək insan üçün borcdur. Karyeranın ailəyə mane olduğu fikri ilə razı deyiləm. Mən ailə qurduqdan sonra və hər övladım dünyaya gəldikcə karyeramda bir az da qabağa getmişəm. Çünki ailəm, övladlarım fəaliyyətimi daha da stimullaşdırıb və mənə motivasiya verib. Ola bilər ki, bu, kimdəsə fərqlidir. O ailə ki, sənin fəaliyyətini dəstəkləmir, karyerana mane olur, deməli, seçimində səhvə yol vermisən. Yaxud kimisi də ancaq öz işinə bağlanır, ailəsini unudur. Bu zaman da deməli, işində səhv var. Hər şeydə qızıl orta var və ona əməl etməlisən. Qızıl ortanı saxlamaq həm karyera üçün sərfəlidir, həm də ailə üçün. Digər problem odur ki, bizdə çox vaxt ailə quranda, kənar təzyiqlər çox olur. Məsələn, iki gəncdir, bir-birini tanımırlar, görmürlər, ailə təzyiq göstərir və bunlar evlənirlər. Sonra ayrılırlar, səbəbləri də karyera olur. Əslində bu, bəhanədir. Səbəb odur ki, bu adamlar bir-birinə uyğun deyil. Mənə elə gəlir ki, ailəli şəxslərin karyera inkişafında cəmiyyət də öz müsbət rolunu oynamalıdır. Məsələn, mənim iki aspirantım gənc ana idi. Çox vaxt mən onlarla layihə görüşlərini Zoom vasitəsi ilə təşkil edirdim, özü də axşam saat 8-dən, yəni onların körpələri yuxuya getdikdən sonra. Yəni, mən onları seçim qarşısında qoymadım: ya diplom, ya ailə. Nəticədə hər ikisinə nail oldular.

● **Azərbaycanla bağlı hansı layihələrdə iştirak edir, əməkdaşlıq edirsiniz?**

● Mən Kanadaya köçdükdən sonra Radiasiya Problemləri İnstitutu ilə əməkdaşlığımı davam etdirmişəm. Bir neçə məqalələrimiz də çıxıb. Bir filosofun sözü var: "Qlobal düşün, lokal yaşa". İnternet dünyanı o qədər əlçatan edib ki, biz onlayn şəkildə olduğumuz yerdən istənilən layihəyə qoşulub, əməkdaşlıq edə bilirik. Bu yaxınlarda İspaniyada elmi konfransda seksiyalardan birinin rəhbəri idim. Demək olar ki, bütün qitələrdən alimlər iştirak edirdilər. Bundan əlavə, xaricdə yaşayan elm adamlarının forumu keçiriləcək, qeydiyyatdan keçmişəm və ölkəmi təmsil edəcəyəm. İndi elə bir dövrdür ki, ən güclü ölkə belə, elmi təkbaşına irəli apara bilməz. Biz də bu proseslərdə iştirak etməli, Azərbaycanın potensialı və töhfəsini göstərməliyik. Qlobal düşünüb, lokal yaşamalıyıq. Azərbaycanlı alimlərin beynəlxalq miqyasda arenaya çıxması vacibdir. Çünki elə gənclərimiz var ki, böyük nailiyyətlər əldə edirlər və Azərbaycanın potensialı əksər ölkələrdən yüksəkdir.

# “GLOBAL MEDİA GROUP” jurnalistlər üçün təlim təşkil edib

**Təlimlər ehtiyatda olan hərbçilər tərəfindən Xızı rayonunda, dağlıq relyefdə təşkil olunub. “Haber Global” televiziyasının təlimçiləri media nümayəndələrinə müharibələrdə, fövqəladə hallarda və digər ekstremal şəraitdə peşə fəaliyyətini yerinə yetirərkən təhlükələrdən qorunmağın yollarından danışıblar.**



“Global Media Group”un təşəbbüsü ilə “Haber Global” televiziyasının təlimçiləri media nümayəndələrinə müharibələrdə, fövqəladə hallarda və digər ekstremal şəraitdə peşə fəaliyyətini yerinə yetirərkən təhlükələrdən qorunmağı, həmin vəziyyətlərdə həyatda qalmağı öyrədən “Müharibə və böhran bölgələrində müxbirlik” adlı praktik və nəzəri təlimləri keçiblər.

Ehtiyatda və təqaüddə olan ordu mənsubları tərəfindən Xızı rayonunda, dağlıq relyefdə təşkil olunan təlimlərdə “Global Media Group”a daxil olan media əməkdaşları iştirak ediblər.

Təlimlərdə media nümayəndələri silah və sursatların taktiki-texniki xüsusiyyətlərini, minalanmış ərazilərdə davranış formalarını, ilkin tibbi yardımı, hərbi topoqrafiyanı, müasir texnologiyalar, eləcə də ənənəvi vasitələrlə istiqaməti müəyyən etməyi və sair öyrəniblər.

## “JURNALİST GETDİYİ ƏRAZİNİN İQLİMİNİ, RELYEFİNİ, ETNİK TƏRKİBİNİ BİLMƏLİDİR”

Təlim proqramında “Haber Global” komandasının dünyanın müxtəlif qaynar nöqtələrində fəaliyyəti zamanı qazandığı təcrübələrin öyrənilməsi də yer alıb. Televiziyanın müxbiri Murat Karataş deyib ki, media nümayəndəsi dünyanın hər hansı bir qaynar nöqtəsinə ezam olunarsa, öncə həmin yer barədə kifayət qədər məlumatlı olmalıdır:

“Çəkiliş heyəti getdiyi ərazinin iqlimini, relyefini, etnik tərkibini, yerli xalqın adət-ənənələrini bilməlidir. Həmçinin, jurnalist əgər müharibə zonasındadırsa, tərəflərin mövqeyini, müharibədə hansı silah-sursatın istifadə olunduğunu da öyrənməlidir. Ərazi haqqında ən dolğun məlumat mənbəyi ölkənizin həmin ərazidə olan diplomatik nümayəndəliyidir. Gündəlik fəaliyyətiniz barədə həmin nümayəndəliyə məlumat verin ki, itkin düşdüyünüz zaman dərhal sizin axtarışınıza başlasınlar. Unutmayın ki, sizin sağlamlığınız, təhlükəsizliyiniz hazırlayacağınız materialdan öndə dayanır. Əgər ərazidə təhlükə hiss edirsinizsə, məsələn, hər hansı bir tələ, mina və yaxud da partlamamış sursatla çirkləndiyindən şübhələnirsinizsə, həmin ərazi təhlükəli olmasa belə, siz elə hesab edin və oraya getməyin”. M.Karataş əlavə edib ki, media nümayəndəsi dünyanın hər hansı bir qaynar nöqtəsinə gedirsə, onun üzərində həyatını asanlaşdıracaq xüsusi vasitələr olmalıdır. İlk olaraq çəkiliş heyətinin iş çantasında “poverbank”, əl fənəri, maska, alışqan, qida, yağış paltarı və çəkmə olması vacibdir.



## ƏGƏR AZDIĞINIZI HESAB EDİRSİNİZSƏ...

Təlimatçı-mütəxəssis, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabiti, kapitan Turqay Məhərrəmov deyib ki, ərazidə cəhətləri tapmaq üçün bir neçə vasitədən istifadə etmək olar: “Əgər azdığınızı hesab edirsinizsə, istiqamətinizi tapmaq üçün bir neçə variantınız var. Gecədirsə, bu zaman qütb ulduzuna baxıb şimalı müəyyən edə bilərsiniz, bu ulduz digərləri ilə müqayisədə daha böyük və parlaq görünür. Digəri tərs kəsdirmə üsuludur ki, relyefə görə, olduğunuz yeri müəyyən edə bilərsiniz. Çalışın, müharibə zonasında olduğunuz zaman hər hansı bir tərəfin mövqeyinə yaxınlaşarkən GPS vasitələrindən qısamüddətli istifadə edin, çünki ordularda bu sistemin peykə göndərdiyi siqnalı müəyyən edə biləcək xüsusi vasitələr var. Bu vasitələr həmin siqnalları işıqlanma kimi göstərir və qarşı tərəf sizin olduğunuz yeri müəyyən edə bilir. Müharibədə qanun olmur və ona elə də vacib deyil ki, siz media nümayəndəsisiniz, yaxud düşmən. Onun istifadə etdiyi proqram özünə tərəf yaxınlaşan yad bir cismi görür”.

## YARALININ PSİXOLOJİ DURUMUNU YÜKSƏK TUTMAQ ƏSAS İŞLƏRDƏN BİRİDİR



T.Məhərrəmov ilkin tibbi yardım barədə də məlumat verib. Deyib ki, ilk tibbi yardım yaralının aldığı xəsarətə görə müxtəlifdir. Onun sözlərinə görə, bunlar güllə və qəlpə yarası, yanıq, eləcə də boğulma ola bilər. “Əgər, şəxs güllə və ya qəlpə yarası alıbsa, sizin ilk işiniz qanaxmanı durdurmaqdır, yara ayaqdadırsa, dizdən yuxarı hissəni hər hansı bir vasitə ilə, bu, köynəyiniz də ola bilər, bağlayaraq qanın axımını dayandırın. Yaralının psixoloji durumunu yüksək tutmaq əsas işlərinizdən biridir. Sizin onu xilas edəcəyinizə əmin olmalıdır, əks halda panikaya qapılıb özünü itirə bilər. Çalışın ki, yaralı hissəni həmin adama göstərməyin. Yaranı torpaqdan uzaq tutun və üzərini örtün ki, yerdən torpaq vasitəsi ilə bakteriya bulaşmasın. İlk tibbi yardım zamanı şəxsin öz tibbi çantasından istifadə edin. Qanaxmanı dayandırmağı bacardınızsa, növbəti işiniz digər xəsarətlərin olub-olmadığını müəyyən etməkdir. Əgər həmin hissədə həm də sınıq varsa, qolu və yaxud da ayağı sabit tutmaq üçün hər hansı bir vasitədən istifadə edə bilərsiniz. Yaralanan şəxsin həmin hissəni hərəkət etdirməsinə mümkün qədər imkan verməyin”, - təlimçi deyib.

Minaaxtarma üzrə layihə rəhbəri, ehtiyatda olan polkovnik-leytenant Xaliq Hüseynov isə mina və partlamamış hərbi sursatlardan danışıb. O, minaların növləri barədə təlim iştirakçılarını məlumatlandırıb. Həmçinin, Azərbaycanın Qarabağ bölgəsində erməni silahlı birləşmələrinin yerləşdirdiyi minaların növlərini sadalayıb.

Qeyd edək ki, dağ-meşə relyefində bir neçə gün davam edən nəzəri və praktik təlimdə iştirakçılar texniki, eləcə də digər lazımi avadanlıqla təmin olunublar.

# MİKRO SAHİBKARLAR VERGİ MÜJDƏSİ GÖZLƏYİRLƏR

**Bu ilin əvvəlindən ləğv edilən güzəştlərin gələn il yenidən bərpa ediləcəyi ilə bağlı gözləntilər var. Ekspertlər də hesab edirlər ki, yanvarın 1-dən tətbiq edilən sistem gözlənilən effekti verməyib.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Gələn il Azərbaycanda mikro sahibkarların gəlirlərinə vergi güzəştləri tətbiq edilməsi planlaşdırılır. Maliyyə Nazirliyindən mətbuata bildirilib ki, 2025-ci ildə gəlirlər sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır.

Maraqlıdır, bu sahədə hansı vergi güzəştləri tətbiq edilə bilər, hansı addımların atılmasına ehtiyac var?

### PROBLEM 12 AYLIQ DÖVRİYYƏNİN 200 MİN OLMASIDIR

Vergi üzrə ekspert Mahmud Abasquliyev "Kaspi"yə açıqlamasında bildirdi ki, hazırda Vergi Məcəlləsinin müvafiq maddəsinə əsasən, üç nəfər işçisi olan, məcburi dövlət sosial sığorta borcu olmayan, dövriyyəsi 200 mini aşmayan şəxslər mikro sahibkarlıq subyekti kimi dövlət büdcəsinə ödəyəcəyi gəlirlərin 75 faizi vergidən azaddır, yerdə qalanın 20 faizini ödəyirlər: "Yəni, hazırda üç işçisi olana 75 faiz güzəşt verilir. Bundan əlavə, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə mikro sahibkarlıq subyektlərinin fəaliyyətinin davamlılığının təmin edilməsi və sosial sığorta yükünün dövlət büdcəsi vəsaiti hesabına kompensasiyası məqsədilə onların özlərinə görə ödədikləri sosial sığorta haqqı məbləğlərinin 25 faizi dövlət büdcəsinə ödənilməli olan vergi məbləğindən çıxılır. Burada problem 12 aylıq dövriyyənin 200 minlik olmasıdır. Gələcəkdə bu rəqəmin artması daha yaxşı olardı".

## NÖVBƏTİ İLDƏN GÜZƏŞTLƏR BƏRPA OLACAQ?

Millət vəkili Vüqar Bayramov isə deyir ki, mikro sahibkarlara güzəştlərin verilməsi vacib məqamlardandır: "Mikro sahibkarların gəlirlərinə güzəştlər var idi. 200 min manatadək olan dövriyyədə 75 faiz gəlir vergisində güzəşt tətbiq olunurdu. Yəni, mikro sahibkarlar əldə etdiyi gəlirlərdən 5 faiz ödəniş edirdilər. Amma 2024-cü ilin yanvarın 1-dən etibarən, sistem dəyişdi. Yalnız 3 və daha çox işçisi olan mikro sahibkarlar bu güzəştlərdən istifadə etmək imkanı qazandılar, nəticədə mikro sahibkar kimi fəaliyyət göstərən, amma işçiləri olmayanlar belə güzəştlərdən faydalana bilmədilər. Bu baxımdan gözlənilir ki, növbəti ildən etibarən mikro sahibkarlar üçün güzəştlər bərpa olunacaq. Müəyyən limit çərçivəsində gəlir əldə edən mikro sahibkarlar əvvəlki illərdə olduğu kimi gəlir vergisindən 75 faiz güzəşt əldə edəcəklər".

Millət vəkili vurğulayır ki, bununla bağlı Milli Məclisdə müzakirələr zamanı təkliflər təqdim edilib: "Gözləntilərimiz ondan ibarətdir ki, 2025-ci ilin yanvarın 1-dən etibarən, limitli dövriyyə çərçivəsində müəyyən dövriyyəsi olan mikro sahibkarlar yenidən güzəşt əldə etmək imkanı qazanacaqlar və onların gəlirlərinə 75 faiz güzəşt tətbiq olunacaq".

İqtisadçı Fikrət Yusifov bildirir ki, ölkədə sahibkarlıq subyektlərinin 90%-dən çoxunu mikro sahibkarlıq subyektləri təşkil edir. Onun sözlərinə görə, mikro sahibkarlığın inkişaf etdirilməsi istiqamətində dövlət tərəfindən son illərdə bir sıra addımlar atılmış və hətta pandemiya dövründə mikro sahibkarlığa dəstək məqsədilə 2022/2023-cü illər üçün onlara 75% vergi güzəşti müəyyən olunmuşdu.



Mahmud Abasquliyev
Vüqar Bayramov
Fikrət Yusifov

## MİKRO SAHİBKARLIQ ÜÇÜN ƏN MİNİMAL VERGİLƏR

Onun sözlərinə görə, cari ilin yanvar ayının 1-dən həmin güzəşt aradan qaldırıldı və mikro sahibkarlar əvvəlki qaydada vergiyə cəlb olunmağa başladılar: "Hesablamalar göstərir ki, bu güzəştlərin ləğvindən dövlət büdcəsinin əldə etdiyi əlavə vəsait 50 milyon manatdan çox ola bilmədi, əvəzində verginin 5%-dən 20%-ə qaldırılması, yəni iki il üçün verilmiş 75% güzəştin ləğvi bir çox sahibkarların fəaliyyətinə son qoydu. Bunu inkişaf etdirmək üçün çıxış yolu mikro sahibkarlıq üçün ən minimal vergilərin müəyyənləşdirilməsidir. Yəni, mikro sahibkarlıq üçün bu vergilər keçid dediyimiz mərhələdə bir növ simvolik xarakter daşımalıdır. Dövlət büdcəsinin həcminin 40 milyard manata yaxın olduğu bir zamanda sahibkarların 90%-dən çoxunu təşkil edən mikro sahibkarların əlindən ümumi məbləği 50 milyon manatı keçməyən güzəşti almaq hansı məntiqə sığa bilər? Bax, bu sual hökumətin yetkililərini ciddi düşündürməlidir".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2167
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

SON ZAMANLAR ÖLKƏMİZDƏ DƏRMANDAN ZƏHƏRLƏNMƏ HALLARI ARTIB

# SAĞALMAQ ÜÇÜN İÇİRİK, AMMA ZƏHƏRLƏYƏ DƏ BİLİR

**Dərmandan zəhərlənmə halları zaman keçdikcə artan dinamika ilə davam edir. Mütəxəssislər buna əsas səbəb kimi həm dərmanların keyfiyyətini, həm də insanların səhlənkarlığını göstərirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü il iyul ayı ərzində Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə zəhərlənmə səbəbilə 74 nəfər qəbul edilib. Şöbəyə qəbul edilmiş 32 nəfər dərmandan zəhərlənənlərdir. Qeyd edək ki, aprel ayı ərzində şöbəyə qəbul edilən xəstələrdən də 56-sı dərmandan zəhərlənmişdi. Bəs dərmandan zəhərlənmə halları niyə və necə baş verir?

### "SAĞLAMLIĞIMIZI RİSKƏ ATMAMALIYIQ"

Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrasının dosenti, farmakoloq Aydın Əliyev deyir ki, dərmandan zəhərlənmə bir neçə amillə bağlıdır. Preparatların keyfiyyəti, dərmanın düzgün saxlanılmaması, istifadə müddətinin bitməsi bu amillərdən ən əsaslarıdır: "Xaricdən gətirdiyimiz məhsulların keyfiyyətsiz olması mümkündür. Xəstə dərmanı aptekdən aldıqda mütləq onun saxlanılma müddətinə fikir verməlidir. Dərmanın keyfiyyətini soruşmalı, firmasını öyrənməlidir. Dərman alarkən bu sualları mütləq verməliyik. Sağlamlığımızı riskə atmamalıyıq".


Aydın Əliyev

### "ÖLÜM HADİSƏLƏRİ İLƏ RASTLAŞIRIQ"

A.Əliyevin fikrincə, həkim nəzarəti olmadan dərman qəbul etmək də həyatımızı riskə ata bilər: "İnsanlarda ağır xəstəliklər ola bilər ki, həkim məsləhəti olmadan qəbul edilən dərmanın həmin xəstəliyə mənfi təsirinin olması mümkündür. Xüsusən qaraciyər xəstəliyi, diabet, allergiyası olan şəxslərdə ölüm hadisələri ilə rastlaşırıq. Həmçinin ola bilər ki, dərman düzgün təyin olunmasın. Bu zaman təzyiq normadan aşağı düşür, böyrək problemləri yaranır. Qanı laxtalandıran dərmanlardan düzgün istifadə etmədikdə insult və infarkt halları mümkündür. Həkimsiz dərman almaq qəti şəkildə olmaz. Bəzən xəstələr reklamlarda dərmanı görür, yaxud kiminsə məsləhəti ilə alıb qəbul edirlər. Bəzən bir neçə dərmanı birlikdə qəbul edirlər. Amma dərmanların qarşılıqlı təsir gücü olur. Bəlkə hansısa dərmana qarşı orqanizmdə həssaslıq var. Bu səbəbdən qeyd olunanlar nəzərə alınmalıdır".




## VALİDEYN NƏZARƏTSİZLİYİNİN FƏSADLARI

Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkim-toksikoloqu Aynur Məmmədova isə bildirir ki, zəhərlənmələrə həm böyüklərdə, həm də uşaqlarda rast gəlinir: "Amma dərman zəhərlənmələri əsasən uşaqlarda baş verir. Bunun da səbəbi odur ki, dərmanları alçatan yerə qoyurlar, uşaqların yanında dərman qəbul edirlər və onlara izah etmirlər. Uşaqlar da elə anlayırlar ki, onlara da bu dərmanları qəbul etmək olar. Uşaqlarda rast gəlinən dərman zəhərlənmələri daha təhlükəlidir. Valideynlərə hər zaman xəbərdarlıq edirik ki, dərmanları əl altında saxlamasınlar. Böyüklərdə isə dərman zəhərlənmələri daha çox özlərinə qəsd etmə şəklində baş verir. Son vaxtlar özünəqəsd halları da artıb. Onlar əsasən yeniyetmələrdir. İmtahandan kəsildikdə, yaxud stress faktorları olduqda bu yolu seçə bilirlər".

### ERKƏN MÜDAXİLƏ İLƏ XİLAS ETMƏK MÜMKÜNDÜR

A.Məmmədovanın sözlərinə görə, dərmanlar insanların səhlənkarlığına görə xarab ola bilər:



"Keyfiyyətlə bağlı dərman zəhərlənmələri baş vermir. Hələ bu vaxta qədər belə bir halla qarşılaşmamışıq. Sadəcə, bəzən olur ki, insanlar dərmanları düzgün şəraitdə saxlamırlar. Günəş şüası təmas etdikdə, yaxud soyuq halda saxlanılmalı olan dərman isti şəraitdə qaldıqda xarab olur. Bu dərmanları qəbul etdikdə xəstədə ürək bulanması, diskomfort əlamətlər baş verir. Ona görə dərmanları üzərilərində qeyd edildiyi qaydada saxlamaq lazımdır".

Toksikoloq qeyd etdi ki, dərman zəhərlənmələri ölümə səbəb ola bilər. Amma bu, təsadüfi hallarda olur: "Əksər hallarda xəstə həkimə tez gəldikdə müdaxilə edib vəziyyətdən çıxara bilirik. Əsas risk qrupuna uşaqlar, hamilələr və yanaşı somatik xəstəlikləri olan şəxslər aiddir. Şəkər, ürək-damar, dializ xəstəliyi, ağır xroniki gedişatlı olan xəstələrdə dərman zəhərlənmələri ağır hallara gətirib çıxarır".

## DƏRMANLARI SPİRTLİ VƏ ENERJİ İÇKİLƏRİ İLƏ QƏBUL ETDİKDƏ...

Terapevt Sübhan Hacıyev deyir ki, yaşlı insanların dərmanları səhv salması mümkündür. Bəzən düzgün görmədikdə, yaxud çaşqınlıqdan, unutqanlıqdan bu cür hallar baş verir: "Həmçinin yaşlı insanlar xroniki xəstəliyi olduğu üçün eyni anda bir neçə dərmanı qəbul edirlər. Dərmanları su ilə deyil, müxtəlif spirtli içkilərlə, yaxud enerji içkiləri ilə qəbul etdikdə kimyəvi reaksiyaya daxil olub zəhərlənmə simptomları yaradır".

Terapevtin sözlərinə görə, zəhərlənmə simptomlarına mədə-bağırsağın pozulması, qusma, ishal, başgicəllənmə, halsızlıq və sair aiddir: "Uşaqlarda çox ciddi nevroloji pozuntular, mədə-bağırsaq traktının pozulması, qan dövranında ciddi narahatlıqlar yarana bilər. Çox ciddi allergik reaksiyalar yaranarsa və anafilaktik şok verərsə, dəqiqələr içində ölüm halı yaşanması mümkündür. Bu, antibiotiklərdə, müəyyən ağrıkəsicilərdə daha çox görülür.

Bu cür hallarla rastlaşdıqda mütləq şəkildə xəstəxanaya, toksikoloji şöbəyə müraciət etmək lazımdır. Çünki bu xəstələrdə ilk 12 və 24 saat çox önəmlidir. Həkim nəzarətində olmaq gələcək həyatları üçün çox vacibdir. Bəzən dərman yox, səhlənkarlıq da insanların həyatlarına son qoya bilər".


Sübhan Hacıyev

# TEMPİ SAXLAMAQ LAZIMDIR



**Azərbaycana gələn turistlərin sayında ciddi artım müşahidə edilir. Rusiyadan, Hindistandan gələn turistlərin sayında nəzərəçarpacaq artım müşahidə edilir. Gələn il Çindən gələnlərin sayında da ciddi çoxalma proqnozlaşdırılır.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Azərbaycanı ən çox rusiyalı turistlər ziyarət etsə də, Hindistan gələn turistlərin sayındakı artıma görə birincidir”. İqtisadçı ekspert, millət vəkili Vüqar Bayramovun sosial media hesabında paylaşdığı statistika təkcə ölkəmizə gələn turistlərin sayının artımının göstəricisi deyil, həmçinin bu rəqəmləri qoruyub saxlamağın və daha da artırmağın yollarını tapmaq üçün ipucudur. Belə ki, Azərbaycana həm MDB, həm Avropa İttifaqı, həm Asiya, həm də körfəz ölkələrindən gələn turistlərin sayında ciddi artım var. İqtisadçının fikrincə, turizm neftdən sonra ölkəmizə ən çox valyuta gətirən sektor kimi məşğulluğa da xüsusi töhfə verir: “Bu baxımdan, turizm infrastrukturunun daha da inkişaf etdirilməsi və qiymətlərin optimallaşdırılması Azərbaycana daha çox turistin gəlməsinə imkan yarada bilər”.

Ölkəmizə gələn turistlərin artım tempini qoruyub saxlamaq və Avropa ölkələrini seçən turistlərin diqqətinə yönəltməyin yollarını isə daha çox turizmçilər bilir.

### TƏKİ ÖLKƏYƏ TURİST GƏLSİN

Turizmçi Azər Hüseynov hesab edir ki, ölkəmizə turist axınının başlıca səbəbi bu istiqamətdə düzgün təbliğatın qurulması ilə bağlıdır: “Biz bütün beynəlxalq sərgilərdə iştirak edirik. İstər regionlarımız, istər paytaxtımız daim yenilənir: yeni hotellər açılır, turizm obyektləri, attraksionlar tikilir. Bütün bu amillər ölkəmizə gələn turistlərin artımına kömək edir”. Turizmçi hazırda ölkəmizə gələn turistlərin siyahısında hindistanlı turistlərin birincilik təşkil etməsini belə izah edir: “Hindlilərin gəlməsinin səbəbi birbaşa təyyarə reyslərinin açılmasıdır. Son iki ildə Çin bazarı da ölkəmizə diqqət yönəldib. O cümlədən, Avropa, Rusiya, Qazaxıstan və Özbəkistandan da turistlər gəlir. Xüsusən rus, qazax və özbək turistləri bizim sanatoriyalar, Naftalan vannaları və digər neft və termal vannalar cəlb edir”.

### ƏRƏBLƏR NİYƏ ƏVVƏLKİ KİMİ GƏLMİRLƏR?

A.Hüseynov ölkəmizə gələn ərəblərin sayının keçən illərə nisbətən azalmasına da münasibət bildirir: “Bir dubaylı Bakıya 4-5 dəfə gəlib. Onlar təzə gəlməyə başlayanda biz elə də yeniliklər etməmişdik. Məsələn, Şahdağa gedib yalnız kanat görürdülər, əlavə attraksionlar yox idi. Onlar yenilik axtarırlar. Amma sonradan kompleksdə paraşütlər və yeni attraksionlar yarandı. Bu inkişaf etdikcə turistləri daha çox cəlb etməyə başladı”. Turizmçinin fikrincə, ölkəyə daha çox turist cəlb etmək və artım tempini qoruyub saxlamaq üçün atılacaq addımlar sırasında müntəzəm təbliğat da yer almalıdır: “Ölkə olaraq daim yenilik etməliyik, çünki turist yenilik istəyir. Biz hotellərin rəhbərliyi ilə görüşür və “necə etsək qonaqlar bizi seçər?” sualı ətrafında qarşılıqlı tövsiyələr verir, başqa ölkələrin təcrübələrini müzakirə edirik. Bu yeniliklər sayəsində bir turisti ikinci dəfə də ölkəmizə gətirə bilirik. Amma yenilik olmayanda turist sayı azalmağa doğru gedir”.

## ÇİN TURİSTLƏRİ HİNDİSTANDAN GƏLƏNLƏRİ DƏ ÜSTƏLƏYƏCƏK

Turizmçi hesab edir ki, biz ölkəmizə fərqli ölkələrdən turistlər cəlb etməyə çalışmalıyıq: “Çin turistləri İpək Yolu xətti ilə səyahət etməyi sevirlər. Böyük ehtimal ki, növbəti mövsümdə Çin turistləri Hindistandan gələnləri də üstələyəcək”.

Turizmçi onu da deyir ki, ölkəyə gələn turistlərin sayının artımı üçün hava yolu şirkətlərinin qiymətləri də münasib olmalıdır. “Biz tez-tez milli hava yolu şirkətinin rəhbərləri ilə görüşür, bu məsələləri müzakirə edirik. Onlar da, biz də uçuşların sayını artırmaq istəyirik. Məsələn, mən şirkət olaraq çarter təyyarə götürmək istəyirəm, amma milli hava daşıyıcı şirkətinin o qədər təyyarəsi yoxdur. İndiki halda uçuşu artırmaq mümkün deyil. Çünki o qədər təyyarəmiz yoxdur. Hazırda ödənişləri edib, müqavilələr imzalayıblar, növbəti illərdə təyyarələrin sayı artacaq. Beynəlxalq hava yollarını da cəlb edirlər, təki ölkəyə turist gəlsin”.

Turizmçi hesab edir ki, ölkəmizə gələn turistlərin stabilliyini qorumaq, Avropa ölkələrinə daimi can atan dünya turistlərini cəlb etmək üçün yenə də işlər görülməlidir: “2023-cü ilin turizm statistikasında İtaliya, İspaniya, Fransa kimi ölkələr top beşlikdə yer alıb. Bu ölkələr hər il milyonlarla turist qəbul edirlər. Onların turizm keçmişi var. Bizim ölkəmizə 2016-ci ildən turist axını başlayıb. Biz həm gənc ölkəyik, həm də turizm arxivimiz o qədər böyük deyil. Amma tədbirlərdə bizə də xoş gəlir ki, ölkəmizi Türkiyə ilə, Avropa ilə rəqabətdə göstərirlər. Qısa bir müddətdə ölkəmizi zəngin turizm tarixi olan ölkələrlə bir sıraya gətirib çıxara bilmişiksə, bu, balaca uğur deyil”.

## ƏYLƏNCƏ, İSTİRAHƏT, TARİX


Süreyya Axundova
Azər Hüseynov
Vasif Yadigarov

Turizmçi Vasif Yadigarov hesab edir ki, gələn turistlərin zövqündən çox şey asılıdır: “Məsələn, İran, ərəb və körfəz ölkələri adətən sırf əyləncə və gəzmək nəzərdə tuturlarsa, Avropa ölkələrindən gələnlər tarixlə maraqlanırlar”. V.Yadigarovun sözlərinə görə, viza rejiminin sadələşdirilməsi də ölkəmizə turist axınında böyük rol oynayıb: “Nəinki Bakıda, regionlarda da hotellərin sayı artıb. Bu il hətta regionlarda da boş hotel yoxdur. Hesab edirəm ki, turistləri Azərbaycana cəlb etmək üçün milli yeməklərimizi reklam edib, onların paketlərinə əlavə etmək lazımdır”.

### “ELƏ TURİSTLƏR VAR Kİ, TƏKRAR-TƏKRAR GƏLİRLƏR”

Turizmçi Süreyya Axundovanın fikrincə, Azərbaycana gələn turistlərinin sayının artmasında ölkəmizin dünyada təbliğatı rol oynayır: “Hətta hava limanlarında belə, ölkəmizin reklamı gedir. Ölkəmizdən gedən turistlər ətraflarındakı insanlara Azərbaycan haqqında xoş şeylər danışırlar. Bu da turistlərin daha çox gəlməsində rol oynayır. Hətta elə turistlər var ki, təkrar-təkrar gəlirlər”. Turizmçi hesab edir ki, ölkəmizdə keçirilən beynəlxalq oyunlar, dünya şöhrətli müğənnilərin Azərbaycanda konsert proqramları da qonşu dövlətlərdən olan turistlərin diqqətini cəlb edir.

# ÇÖRƏK YEMƏYİ AZALDIRIQ?

Ölkəmizdə əvvəlki illərlə müqayisədə çörək istehlakı azalıb. Belə ki, 2023-cü ildə Azərbaycanda adambaşına 116.6 kiloqram çörək istehlak edilib. Bu, 2022-ci illə müqayisədə 5.9 kiloqram azdır. Ekspertlər bildirirlər ki, bu göstərici nə qədər aşağı düşşə, sağlığımız üçün bir o qədər faydalı olar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan xalqı üçün çörək yalnız qida deyil, həm də mədəni dəyər daşıyan müqəddəs bir nemətdir. Uzun illərdir, hər evin süfrəsində çörək əsas yer tutur. Xalq arasında "Çörək varsa, bərəkət var" deyimi çörəyin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir. Bu, azərbaycanlıların çörəyə olan xüsusi sevgisindən qaynaqlanır. Təsadüfi deyil ki, azərbaycanlıları adətən "çox çörək yeyən toplum" kimi xarakterizə edirlər. Lakin, deyəsən, dövr dəyişdikcə, çörək yeməyə olan sevgimiz də azalır. Belə ki, 2023-cü ildə Azərbaycanda adambaşına 116.6 kiloqram çörək istehlak edilib. Bu isə 2022-ci illə müqayisədə 5.9 kiloqram azdır. Görəsən, həqiqətənmi, çörək yeməyi azaltmışıq? Çörəyi rasionumuzda azaltmağın müsbət və mənfi tərəfləri nələrdir?

İqtisadçı Akif Nəsirlinin sözlərinə görə, çörəyin rasionumuzda azalmasının əsas səbəblərindən biri aparılan təşviqatdır. Təbliğat nəticəsində insanlar maariflənirlər: "Əhalinin bir hissəsi pəhriz saxlayır və çörəkdən maksimum şəkildə az istifadə edir. Hazırda ekspertlər də sağlam qidalanmanı təbliğ edirlər. 10-15 il əvvəl əhalinin qida rasionunun əsas hissəsini çörək tuturdu. Amma yavaş-yavaş durum dəyişir".




### ÇÖRƏKLƏRİN RƏF ÖMRÜNÜ UZADIRLAR

Qida təhlükəsizliyi üzrə ekspert İlkin Şirinov bildirdi ki, hazırda satışda olan çörəkləri yemək sağlamlığımız üçün təhlükəlidir: "Çörəkdən istifadə qidalanmanın ayrılmaz bir hissəsinə çevrilib. Yemək yeyərkən süfrədə çörək olması sanki bir qanundur. Amma istifadə etdiyimiz çörəklər, un məmulatları nə dərəcədə faydalıdır? Buradakı əsas təhlükə çörək və un məmulatları hazırlanarkən istifadə olunan kimyəvi maddələrdir. Onlardan istifadə edərək çörəklərin rəf ömrünü uzadırlar. Mağazalarda çörəklər 2-3, hətta beş gün saxlanılır". İ.Şirinovun fikrincə, mağazada satılan həm ağ, həm də qara çörəklərin tərkibində kimyəvi qatqılar olur: "Həmçinin, bu gün çörəklərin rənginin daha ağ olması, həcminin böyüklüyü üçün xüsusi peroksidlərdən istifadə olunur. Buğdadan hazırlanan çörəyin özünün rəngi ağ olsa da, qatqılar da vurularaq satış üçün həcm, forma və rəng verilir. Amma həmin maddələr insan sağlamlığı üçün bilavasitə təhlükə mənbəyidir. Tərkibində kimyəvi maddələr istifadə olunan çörəklərin bir gün saxlanma şəraitinə əməl olunmadıqda onlarda yapışqanlıq və xoşagəlməz qoxu əmələ gəlir".

### "İstehsalçılar yalnız satışlarını düşünürlər"

Ekspert çörəksiz yaşaya bilməyənlərə çıxış yollarını da göstərib: "Çörəkdən əl çəkə bilməyənlər kobud üyüdülmüş, aşağı sort unlardan hazırlanan çörəklərə üstünlük versələr, daha yaxşı olar. Çörəkdən tamamilə imtina etməsək də, çalışmalıyıq ki, istifadəsini bacardığımız qədər azaldaq. Bəzi insanlar unu özləri üyüdüb çörək hazırlamağı seçir. Çörəkdən imtina edə bilməyən şəxslər də özləri evdə çörək bişirməyi sınayaraq daha sağlam qidalana bilərlər. Çünki istehsalçılar istehlakçıların sağlamlığı, onların keyfiyyətli məhsul əldə etməsini yox, yalnız satışı, qazanclarını düşünürlər".

### Özümüzü bu xəstəliklərdən qoruya bilərik

Həkim-diyetoloq Leyla Zülfüqarlı isə dedi ki, tam taxıllı çörəklərdən istifadə ilə özümüzü və sağlamlığımızı xəstəliklərdən qoruya bilərik: "İki ilə çörək istehlakının adambaşına altı kiloqram azalması gözəl göstəricidir. Çünki çörək yeməyi azaltmaqla şəkərli diabet riskini, piylənməni, ürək qan-damar xəstəliklərini azalda bilərik. Doğru çörək seçərək ehtiyacımızı bir və ya yarım dilimlə ödəmək mümkündür. Doğru çörək taxıllı çörəklərdir. Onları normasında yedikdə onun ziyanı yoxdur".

Qida eksperti Fərid Səfərov da insanların yemək rasionlarında çörəyi azaltdığını təsdiqlədi: "Ümid edirik ki, statistikada azalmanı bir az da görərik. Mən ətrafımdakı insanların timsalında da təsdiq edirəm ki, hətta çoxlu çörək yeyənlər belə, əvvəlki dövrlərə nisbətən indiki dövrdə bunu minimuma endiriblər. İnsanların əksəriyyəti ya ümumiyyətlə çörək yemir və bunu alternativ karbohidratlarla əvəz edir, ya da daha sağlam çörəklərə üstünlük verirlər. Məsələn, mərcidən, qarabaşaqdan, yulafdan, əsasən, kompleks karbohidratlardan hazırlanan çörəkləri seçirlər".

F.Səfərovun fikrincə, çörəyin orqanizmimizə ziyanı faydasından qat-qat çoxdur: "Hazırkı vəziyyətdə çörək yeməyi azaltmağın, əsasən, müsbət tərəfləri var. Çünki çörək hazırlanarkən un çox cilalanır. Ən əsas məsələ, nəzərə almaq lazımdır ki, çörək karbohidratdır. Rasionumuzda da karbohidrat nə qədər az olarsa, bizim üçün o qədər xeyirlidir. Həmçinin, çörək daha gec həzm olunur. Hər kəs onu rahatlıqla həzm edə bilmir. Onu orqanizm üçün daha faydalı kompleks karbohidratlarla əvəz etmək olar".



# İSTEDADI VƏ SƏXAVƏTİ İLƏ ƏBƏDİLƏŞƏN SƏXAVƏT

"Səxavət Məmmədov səxavətli adam idi. Dosta əl tutan idi. El şənliklərində bəzən qazandığı pulu paylayırdı, özünə heç nə qalmırdı. Sənətini heç vaxt pula satmırdı".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bu dünyadan bir Səxavət keçdi. Təkrarolunmaz səsi və əvəzolunmaz insanlığı ilə ürəklərdə dərin izlər buraxdı. Yeri hər yanda görünür. Oxuduğu mahnılar həmişə qulaqlarda səslənir...

Sentyabrın 30-u - xanəndənin xatirə günü ərəfəsində sənət dostları ilə Səxavət Məmmədovu xatırladıq.

### SƏXAVƏT YEGANƏ XANƏNDƏDİR Kİ...

"Səxavətin ömrü mənimlə bir yerdə keçib. 15 yaşında Asəf Zeynallı adına Musiqi Məktəbində oxumuşuq, dostluq etmişik. Əvvəl tələbə yoldaşı, sonra sənət yoldaşı, daha sonra ailəvi dost olmuşuq", - deyə Xalq artisti Möhlət Müslümov xatırlayır: "Xarici ölkələrdə qastrolda, saysız-hesabsız el şənliklərində birgə iştirak etmişik. 23 illik yol gəlmişik. Bu illər ərzində yüz ilin işini görmüşük". M.Müslümov deyir ki, Səxavət həm də yüksək insani keyfiyyətlərə malik olub: "Böyük sənətkarlar çoxdur, amma həm gözəl sənətkar, həm də yaxşı insan olmaq hər xanəndəyə nəsib olmur. Səxavət belə sənətkar idi. Özündən çox dostunu, ailəsini düşünən idi. O, özünə qulluq etmirdi, ətrafındakı insanlara əl tutur, kömək edirdi. O dərəcədə imkanı olmurdu, amma yenə yardım etməkdən qalmırdı. Görəndə ki, birinin yoxudur, gedib ona əyin-baş alıb gətirirdi. Mən Səxavəti belə görmüşəm". M.Müslümov deyir ki, Səxavətin sənətinin özəlliyi heç kimi yamsılamaması idi: "O, sənətə özü kimi gəldi, səhnəyə çıxdığı ilk gündən öz dəst-xətti oldu. İndi də cavanlar onu yamsılayırlar. Amma onun öz yolu vardı. Bəzən xanəndələr "soyuq su içmirəm, istiotlu yemək yemirəm, yaxşı yatmamışam, ona görə oxuya bilmərəm" deyirlər. Amma Səxavət yuxusuz da, xəstə də olanda oxuyurdu. Yadımdadır, aprel ayında Nikaraquaya getmişdik. Elə isti havada buzlu su içib oxuyurdu. Səxavət cəmi 38 il yaşadı, amma bu ömür 100 yaşında sənətkarın ömrünə bərabər oldu. Gərək 100 il yaşayasan ki, onun musiqidə etdiklərini edəsən".

### "TOYDA YIĞILAN PULU DA TOYA YAZDIRDI"

Tarzən deyir ki, Səxavəti həm sənətinə, həm insaniyyətliyinə görə el şənliklərinə çox dəvət edirdilər: "Görürdü ki, biri övladının toyunda oxumasını arzulayır, amma kasıbdır, "Get, heç nə lazım deyil, gələcəyəm" deyirdi. Sözünü həmişə yerinə yetirirdi. Bir dəfə kəndlərin birində kasıb bir qadın Səxavəti oğlunun toyunda oxumasını arzuladığını deyəndə onu lağa qoyub gülmüşdülər. O da Səxavətin yanına gəlib danışdı. Səxavət qadına "Get, gələcəyəm" dedi. Biz toya getdik. Səxavət toyda yığılan pulu da toya yazdırdı. Sonra Bakıya qayıdıb evdən pul götürdü, özü ilə apardığı musiqiçilərə verdi. İndi varmı belə adam? Səxavət yeganə xanəndədir ki, sağlığında onu necə sevmişdilərsə, yoxluğunda da elə sevirlər. Onu təkcə ölkəmizdə deyil, başqa ölkələrdə də tanıyır və sevirdilər. Cənubi Azərbaycanda hər evdə onun lent yazısı var. İndi də gedəndə "onun haqqında xatirələrini danış" deyə əl çəkmirlər. M.Müslümov sənət dostunun faciəli ölümünü unuda bilmədiyini deyir: "Səxavətin ölümü bizim qəlbimizdə bir yaradır. Elə gün yoxdur ki, onu xatırlamayım..."

### İNDİ RUHU ŞADDIR Kİ...

Xalq artisti Mənsum İbrahimov mərhum xanəndəni əvəzolunmaz hesab edir: "Səxavət Məmmədov unudulmaz sənətkardır. Onun oxuduğu muğamlar, xalq və bəstəkar mahnıları həmişə xalqımızın yaddaşındadır. Hər dəfə onun ifası eşidiləndə belə bir xanəndəni itirdiyimizə görə heyifsilənirik. Çünki o, xalqın sevdiyi xanəndə idi. İndi ruhu şaddır ki, doğulduğu Ağdam torpağı azaddır..."

### SƏNƏTİ YETİM QOYUB GETDİ...

"Səxavətlə 1976-cı ildən tanışam. Həbib Bayramov, Səxavət və mən "Kubinka"da el şənliyində iştirak edərkən tanış olduq. Sonra da ömrünün sonuna qədər onu müşayiət etdim", - deyə kamança ifaçısı, Xalq artisti Fəxrəddin Dadaşov xatırlayır: "Səxavətin sənəti də özü kimi böyük idi. Onun dostluğu da əvəzolunmaz idi. Səxavət çox ürəkli oxuyan idi. Səhnədə oxuyanda ona arxayın olurdun, bilirdin ki, sənəti yüksəyə qaldıracaq. 1986-cı ildə Nikaraquada səfərdə olduq. Səxavət hədsiz istiyə görə sərinləmək üçün buz yeyirdi. "Səsin korlanacaq" deyəndə, "O səs ki buzla korlandı, mənə lazım deyil" cavab verirdi. O, buzu yeyəndən sonra elə oxuyurdu ki, zal onu ayaq üstdə alqışlayırdı. Adamlar gəlib "bu səs haradan çağlayır", - deyə onun boğazına baxırdılar. Sonra Hindistanda, Fransada, İsraildə uzunmüddətli qastrollarda olduq. İsraildə oxuyandan sonra adamlar gəlib onun əlindən öpür, sənəti qarşısında baş əyirdilər. Mən orada Səxavətin sənətinə olan böyük sevginin şahidi oldum".

### "OXUDUĞU BÜTÜN MAHNILAR GÖZƏL VƏ YADDAQALAN İDİ"

F.Dadaşov xanəndəyə olan el sevgisini də xatırlayır: "Səxavət səxavətli adam idi. Dosta əl tutan idi. El şənliklərində bəzən qazandığı pulu paylayırdı, özünə heç nə qalmırdı. Sənətini heç vaxt pula satmırdı. Mənlə Möhlət onunla o qədər Qarabağ toylarına gedirdik ki, bizi də ağdamlı kimi tanıyırdılar. Paxıl adam deyildi. Dostlarına heç həsəd aparmazdı. Səxavətin oxuduğu bütün mahnılar dillər əzbəri idi. "Külək" mahnısını Əlibaba Məmmədovun ansamblında yazdırdıq. Mahnının əvvəlini də, ortasını da mən müşayiət etmişəm. Onun oxuduğu bütün mahnılar gözəl və yaddaqalan idi. İndi də o mahnılar insanların yaddaşındadır. O mahnılar efirdən də səslənir, el şənliklərində də. Səxavət o mahnıların möhürünü vurmuşdu. O, öz xırdalıqları, öz yolu ilə oxuyurdu. "Azad bir quşdum..." mahnısını elə şövqlə oxuyurdu ki... Dünyanı da eləcə tərk elədi. O sənəti yetim qoyub getdi..."

### AZAD BİR QUŞ KİMİ...

Oktyabrın 24-də Heydər Əliyev Sarayında Səxavət Məmmədovun xatirəsinə həsr olunan muğam gecəsi keçiriləcək. Həmin gün sənət dostları, gənc xanəndələr səhnəyə çıxacaq, Səxavət Məmmədov haqqında danışacaq, mahnılarını ifa edəcəklər. Sarayın geniş salonunda Səxavətin şövqlə və təkrarsız səslə oxuduğu "Külək" də, "Ay Çiçək" də, "Yar bizə qonaq gələcək" də, "Uca dağlar" da səslənəcək. Xanəndənin ruhu bu mahnılarla təskinlik tapacaq. Azad bir quş kimi pərvazlanıb doğma Qarabağ torpağına, doğulduğu Ağdama qovuşacaq...



Mənsum İbrahimov
Fəxrəddin Dadaşov
Möhlət Müslümov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
28 SENTYABR ŞƏNBƏ 2024
kaspi.az

FIFA və UEFA daha çox gəlir əldə etmək məqsədilə yarışların, beləliklə, oyunların, hətta mövcud turnirlərin özündə matçların sayını artırmaq üçün əllərindən gələni edirlər. Məsələ ondadır ki, daha çox turnir, daha çox oyun daha çox sponsorluq və yayım gəlirləri deməkdir.




## PROBLEMİN KÖKÜNDƏ PUL DAYANIR

FIFA və UEFA daha çox gəlir əldə etmək məqsədilə yarışların, beləliklə oyunların, hətta mövcud turnirlərin özündə matçların sayını artırmaq üçün əllərindən gələni edirlər. Məsələ ondadır ki, daha çox turnir, daha çox oyun daha çox sponsorluq və yayım gəlirləri deməkdir. Artıq böyük turnirlərin yayım hüququndan milyardlarla avro əldə edilir. Bu isə futbol qurumlarının oyun sayını artırmaq cəhdlərini çoxaldır. Son illərdə atılan bəzi addımlara nəzər yetirsək, bunu daha əyani göstərmiş olacağıq. Öncə "köhnə qitə"də Konfrans Liqası (KL), Millətlər Liqası (ML) kimi tamamilə yeni turnirlər yaradıldı. KL daha çox nisbətən aşağı reytinqli klublar üçün əlavə şans xarakter-lidirsə, ML-də bütün yığmaların iştirakı məcburidir. Daha sonra Avropa çempionatında iştirakçı sayı 24-ə yüksəldildi. Bu mövsümdən isə avrokuboklarda oyun sayının artırılması variantına əl atılıb. Digər tərəfdən, FIFA-nın klublararası dünya çempionatını genişləndirməsi oyun sayını pik həddə çatdırıb.

# AZARKEŞLƏR SEVİNİR, FUTBOLÇULAR NARAZIDIR



Bu mövsüm futbolda ən uzun klub kampaniyası olacaq. Çünki ölkədaxili və qitə turnirləri başa çatdıqdan sonra klublararası dünya çempionatı ilk dəfə yeni formatda keçiriləcək. 32 komandanın iştirak edəcəyi yarış ABŞ-də iyun və iyul aylarında təşkil olunacaq və bir aya yaxın davam edəcək. Üstəlik, avrokuboklarda tətbiq olunan yeni format, liqa mərhələsində oyun sayının 8-ə yüksəlməsi, əlavə pley-offla bunun 10 olma ehtimalı, Millətlər Liqası, yığmaların seçmə mərhələ matçları ilə futbol təqvimi daha da sıxlaşır.

Təqvimin get-gedə sıxlaşması, oyun sayının artması futbolsevərlər üçün xoş məqam olsa da, futbolçular artıq bundan bezibləv dilə gəlməyə başlayıblar. Ağır qrafiklə bağlı narazılıqlar əvvəllər də ulduz oyunçular, baş məşqçilər, mütəxəssislər tərəfindən dilə gətirilib, lakin ilk dəfə bu, futbolçuların tətil elan etmək fikirlərini səsləndirmələri həddinə çatıb.

### FUTBOLÇULARIN BAŞQA SEÇİMİ QALMAYACAQ

"Mançester Siti"nin yarımmüdafiəçisi Rodri bir neçə gün əvvəl futbolçuların tətil etməyə hazır olduqları barədə xəbərdarlıq edən ilk super-ulduz oldu. Tezliklə Madrid "Real"ının qapıçısı Tibo Kurtua ona dəstək verərək oyunçuların belə bir addım atmasını istisna etmədi. Rodrinin fikirlərini dəstəkləyənlər arasında "Liverpul"un qolkiperi Alisson Bekker, "Barselona"nın müdafiəçisi Jül Kunde kimi oyunçular da var. Son olaraq Madrid "Real"ının arxa xətt oyunçusu Dani Karvaxal bu məsələ barədə danışıb və fikirlərini belə yekunlaşdırıb: "Vaxt gələcək ki, futbolçuların başqa seçimi qalmayacaq".

Mövcud vəziyyət məşqçiləri də narahat edir. Pep Qvardiola, Yurqen Klopp, Mikel Arteta kimi mütəxəssislər oyun çoxluğunun onların işinə mane olduğunu dəfələrlə dilə gətiriblər. "Real"ın çalışdırıcısı Karlo Ançelotti zədələrin artdığını, futbolçuların bərpa üçün kifayət qədər vaxtının olmadığını və bunun yekunda məşqçi kimi işinə çətinliklər yaratdığını söyləyib.




Alisson Bekker

Tibo Kurtua

## PROBLEM HÜQUQİ MÜSTƏVİDƏ HƏLL EDİLƏCƏK?

Avropanın top klublarında çıxış edən əsas heyət oyunçusunun il ərzində çıxdığı oyun sayı kobud hesablama ilə rahatlıqla 60-ı keçir. Əgər o, bütün mümkün matçlarda iştirak edirsə, bu say az qala 80-ə yaxınlaşır. Bu isə öz növbəsində artan zədələr, nəticədə karyera enişi ilə nəticələnir. Ardıcıl səfərlər, 2-3 gündən bir oynamaq məcburiyyəti bəzən adi bərpa məşqlərinin keçirilməsinə belə mane olur. Ən önəmli məqam - futbolçuların sağlamlığı isə arxa plana atılır. Üstəlik, futbol qurumları qərarları oyunçular, liqa rəhbərlikləri və federasiyalarla məsləhətləşmələr olmadan qəbul edirlər. Peşəkar Futbolçuların Beynəlxalq Federasiyası (FIFPRO) və Avropa Liqaları məsələ ilə bağlı narazılıqlarını futbol qurumlarına bildiriblər. Artıq onlar problemi hüquqi müstəvidə həll etməyin yollarını axtarırlar.

### TƏTİL REAL TƏHDİDDİR?

Çoxlu hipotezlər irəli sürmək olar. Lakin bu mərhələdə tətil gündəmdə deyil və uzaq perspektiv kimi görünür. Çünki oyunçuların xətti keçmə ehtimalı azdır. Əlbəttə, böyük klubların ulduz oyunçularının oynamaqdan imtina qərarı futbol sənayesini sarsıdacaq, lakin ümumilikdə bu, çox böyük sferadır və əksəriyyətin onlara qoşulmamaq ehtimalı çoxdur. Bu mərhələdə oyunçu birliklərinin diqqəti daha çox FIFA-ya qarşı qanuni tədbirlərə yönəlib. Əgər bu, uğur qazanarsa, dünya çempionatında da, qitəmiqyaslı yarışlarda da daha uyğun formata keçid həll yolu kimi görünür. Məsələnin yekununun necə olacağı sualının konkret cavabı yoxdur və spekulyasiyalara açıqdır. Lakin ulduz oyunçuların hər bir əlavə çağırışı məsələni gündəmdə saxlamağa xidmət edəcək. Reallıq isə ondan ibarətdir ki, buna dair qərarlar bağlı qapılar arxasında veriləcək. Əgər qanuni tədbirlər nəticə verməsə, bu zaman oyunçuların tətili daha böyük təhdidə çevrilə bilər.



Pep Qvardiola

Mikel Arteta